

## Sovet əfsanəsi ilə maraqlı müsahibə: Heydər Əliyev və Müslüm Maqomayevlə...

4

# Britaniyalı dövlət naziri:

## "Xocalı qətliamı Azərbaycan tarixinin faciəvi səhifələrindən biridir"



4

Səs
№ 018 (6459) 1 fevral 2022-ci il. Qiymətı 60 qəpik

# "Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın"



8




7

## Biz gənclərin həyata keçirə biləcəyi işlər xeyli çoxdur

# Obameyanq "Barselona"da!



"Arsenal"ın hücumçusu Pyer-Emerik Obameyanq dünən Kataloniyaya gedib. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, qabonlu futbolçu tibbi müayinədən keçdikdən sonra "Barselona"nın heyətinə qoşulacaq. Onun mövsümün sonuna qədər...

16



# NATO-dan erməni separatizminə sillə

10



### "Sərəncam erməni vəhşiliyinin dünyada tanıdılmasında müstəsna rol oynayacaq"

14

"Xocalı soyqırımının otuz illiyi ilə bağlı cənab Prezident İlham Əliyevin imzaladığı sərəncam böyük əhəmiyyət...




### İcbari tibbi sığortadan vətəndaşlar necə yararlana bilər?

10

"Azərbaycanda icbari tibbi sığorta artıq 2020-ci ilin aprel ayından bütün ölkə üzrə tətbiq olunmaqdadır. Bu da öz müsbət...

# Uğurun sirri

## İlham Əliyevin nümunəsində

### "Hakimiyyət formulu"- Rossiya24 telekanalından maraqlı veriliş

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.*




***Xəbər verdiyimiz kimi, yanvarın 30-da "Rossiya 24" telekanalında TASS informasiya agentliyinin baş direktorunun 1-ci müavini Mixail Qusmanın Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Azərbaycan Prezidenti İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş "Hakimiyyət formulu" verilişi yayımlanıb.***




Verilişdə ölkəmiz haqda geniş arayış verilib, həmçinin Azərbaycan Prezidenti ölkəmizin son 30 ildəki inkişaf tendensiyasından, həyata keçirilən sosial-iqtiadi proqramlardan, işğal edilmiş ərazilərimizin azad edilməsindən və digər mühüm məsələlərdən danışıb. Verilişdən bəzi maraqlı məqamları oxucularımıza təqdim edirik:

ARAYIŞ: Son onilliklərdə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb. Azərbaycan gəlir səviyyəsi ortadan yuxarı olan dövlətlər qrupuna daxil olub. Ölkədə davamlı demoqrafik artım müşahidə olunur. Neft hasilatı artır. Bu gün Azərbaycan dünyada enerji təhlükəsizliyinə nail olmaqda liderlər sırasındadır. 2017-ci il sentyabrın 14-də Bakıda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərin sulu hissəsinin birgə işlənməsi barədə yeni Saziş imzalanıb. Bu layihəyə 36 milyard dollardan çox sərmayə qoyulub. 500 milyon ton neft çıxarılıb. 2018-ci il mayın 29-da Cənub Qaz Dəhlizinin mühüm hissəsi olan Trans-Anadolu qaz kəməri - TANAP-ın rəsmi açılışı olub. Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə, proqnozlaşdırılan ehtiyatlar təqribən 3 trilyon kubmetrə bərabərdir.

Mixail Qusman: Azərbaycan tarixən neft hasil edən ölkədir, lakin bununla bərabər Siz artıq neçə ildərdir deyirsiniz ki, Azərbaycan neftdən asılılıqdan xilas olmalıdır.

Prezident İlham Əliyev: Siz tamamilə haqlısınız. Mən bu mövzunu çox fəal şəkildə qaldırmışam və qaldırıram. Bu istiqamətdə müəyyən addımlar atılır. Ona görə də qeyri-neft sektoruna istiqamətlənmə əsas prioritet olub və yenə belədir.

ARAYIŞ: Azərbaycan əlavə regional layihələr həyata keçirir. Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri sayəsində bu ölkə Avrasiyanın əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Şimal-Cənub Nəqliyyat Dəhlizinin Azərbaycan hissəsi yekun mərhələyə qədəm qoyub. Bu dəhliz Hindistanı, Pakistanı, İranı, Azərbaycanı, Rusiyanı və Şimali Avropa ölkələrini birləşdirəcək.

Prezident İlham Əliyev: Azərbaycan ərazisində bütün nəqliyyat-kommunikasiya layihələri praktiki olaraq başa çatdırılıb. Nəqliyyat-logistika infrastrukturunun yaradılması tamamlanıb. Bu gün biz daşımanı çoxaltmaq və Azərbaycanın tranzit imkanlarını artırmaq üçün tərəfdaşlarımızla, qonşularımızla işləyirik.



ARAYIŞ: 2017-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsi təmin edilib. Mahiyyət etibarı ilə Qədim İpək Yolu bərpa olunub. 2018-ci il mayın 14-də Bakının Qaradağ rayonundakı Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi təntənəli şəkildə açılıb. Bu kompleksin yükötürmə qabiliyyəti 15 milyon tondur. Bu həcm 25 milyon tona qədər artırıla bilər. Prezident İlham Əliyevin tapşırığına əsasən, Ələt qəsəbəsində yaradılan Azad İqtisadi Zona 130 milyon nəfəri əhatə edən regional miqyaslı bazara xidmət edəcək. Azərbaycan iqtisadiyyatın müxtəlif sahələrinə böyük investisiyalar cəlb etmək üçün bank islahatı aparır.

Prezident İlham Əliyev: İnformasiya-kommunikasiya texnologiyaları sektorunda da təməl pis deyil. Artıq üç peykə malik olan Azərbaycan kosmik klubun üzvüdür. İKT sahəsi çox fəal inkişaf edir və bu sahədə mühüm artım var. Başqa sahələrə gəldikdə isə, əlbəttə, mən ilk növbədə, kənd təsərrüfatının qeyd edərdim. Burada çox böyük potensial var, çox böyük sərmayə qoyulub və yetərincə ciddi artım var. Biz turizmə böyük diqqət yetirmişik və yenə yetiririk, müasir turizm infrastrukturu yaradılıb. Lakin, əlbəttə, pandemiya bu sektora çox güclü zərbə vurub. Hazırda biz daxili turizmin stimullaşdırılması barədə düşünürük.

Mixail Qusman: Bütün dünyanı faciəli şəkildə cənginə almış koronavirus pandemiyası, əlbəttə, Azərbaycanda da həyata təsir göstərməyə bilməzdi. Azərbaycan rəhbərliyi koronavirusun ölkəyə nüfuz etməsinə, onun inkişafına mane olmaq üçün nə mümkündürsə edib. Qeyd etmək lazımdır ki, Azərbaycanın hakimiyyət orqanlarının fəaliyyəti Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilib.

ARAYIŞ: 2021-ci ilin yanvar ayı. Azərbaycanda vaksinasiya kampaniyasının başlanğıcı. Hər yüz nəfər üçün istifadə edilmiş vaksin dozalarının həcmi 80 faizdən çoxdur. Əhalinin və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün 2 milyard 700 milyon dollar həcmində sosial-iqtisadi paket təqdim olunub. Ümumdünya Səhiyyə Təşkilatının proqramlarına Bakının könüllü maliyyə yardımı 10 milyon dollar olub. 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərilib. Dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərilib.

Prezident İlham Əliyev: Yeri gəlmişkən, bizim təşkil etdiyimiz, həyata keçirdiyimiz işi Ümumdünya Səhiyyə Təşkilatı da qiymətləndirib. Bu təşkilatın Baş direktorunun mənə ünvanladığı məktubda Azərbaycan rəhbərliyinin fəaliyyəti yüksək qiymətləndirilib, habelə Azərbaycan nümunəvi ölkə, yəni bu bəla ilə mübarizədə nümunə göstərən ölkə adlandırılıb.

Ardı Səh. 3

# Uğurun sirri

## İlham Əliyevin nümunəsində

## "Hakimiyyət formulu"- Rossiya24 telekanalından maraqlı veriliş

Əvvəli Səh. 2

ARAYIŞ: 2020-ci ilin may ayı. Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakıda Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin Zirvə görüşü keçirilib. Bu görüş COVID-19-a qarşı mübarizəyə həsr edilib. Qoşulmama Hərəkatı üçün yubiley ili olan 2021-ci ildə təşkilatın 120 üzvünün qərarı ilə Azərbaycanın sədrlik müddəti 2023-cü ilə qədər uzadılıb.

Prezident İlham Əliyev: Azərbaycan yekdilliklə Hərəkatın sədri seçilib, bu da çox əlamətdar amildir. Bildiyiniz kimi, Hərəkatda 120 ölkə iştirak edir və bu ölkələrin bəziləri arasında münasibətlər, yumşaq desək, gərgindir.

Lakin bizə göstərilən hörmət və etimad ona dəlalət edir ki, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazana bilib.

ARAYIŞ: 2020-ci ilin dekabr ayı. Azərbaycan Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusa qarşı mübarizəyə həsr edilmiş xüsusi sessiyası keçirilib. İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxışında yeni təşəbbüs irəli sürüb.

Prezident İlham Əliyev: Biz COVID-19-dan sonra ümumi bərpa üzrə BMT-nin yüksək səviyyəli panelinin yaradılmasını təklif edirik. O, postpandemiya dövründə qlobal tədbirlər barədə tövsiyələr hazırlayacaq.

Mixail Qusman: Azərbaycan əksər beynəlxalq təşkilatların özünəinamlı və fəal iştirakçısıdır. O, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü də olub. Azərbaycan Müstəqil Dövlətlər Birliyi sistemində, ATƏT-də və digər təşkilatlarda fəal işləyir.

Prezident İlham Əliyev: Azərbaycana gəldikdə, biz iştirak etdiyimiz bütün təşkilatlarda məhz həmin təşkilatı gücləndirmək, habelə bu təşkilatın fəaliyyəti çərçivəsində öz milli mənafelərimizi maksimum təmin etmək üçün iştirak edirik. Hər bir beynəlxalq təşkilat qüdrətli ölkələrdən, ortabablardan, bir də hələ bir qədər böyüməli olan ölkələrdən ibarətdir. Ona görə də burada bütün ölkələrin mənafelərinin nəzərə alınması vacibdir. Bu səbəbdən beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı hörməti mühüm prioritetlərdən biri hesab edirəm. Azərbaycan qanunun aliliyini və beynəlxalq hüququn aliliyini həmişə üstün tutur.

Mixail Qusman: Azərbaycanda ən qədim dövrlərdən ən müxtəlif dini və etnik qrupların nümayəndələri, ən müxtəlif xalqlar sülh və mehriban qonşuluq şəraitində yaşayırlar. Mən bunu başqalarından eşitdiyimə görə demirəm. Tam inamla deyə bilərəm ki, multikulturalizm azərbaycanlıların qanındadır.

ARAYIŞ: 2018-ci il mayın 2-də Bakıda Mədəniyyətlərarası Dialoq üzrə V Ümumdünya Forumu keçirildi. BMT bu Forumu mədəniyyətlərarası dialoqun təşviq edilməsi üçün mühüm qlobal platforma kimi qiymətləndirir.

Prezident İlham Əliyev: Əlbəttə, gənc nəslə müraciət edərək demək istərdim ki, onlar öz əcdadlarından nümunə götürərək fədakarlıqla, yüksək vətənpərvərlik hissi ilə yaşamağı, mübarizə aparmağı öyrənsinlər, öz Vətənini qoruyarkən canını belə əsirgəmədən qəhrəmanlıq göstərsinlər.




Mixail Qusman: 10 il bundan əvvəl Azərbaycan Prezidenti ilə söhbət zamanı biz onunla çox ağrılı bir məsələni- Dağlıq Qarabağ ətrafında vəziyyəti müzakirə edirdik. Dəhşətli dərəcədə çətin düyünə düşmüş siyasi problemlər, əlbəttə, öz həllini tələb edir. Sizin fikrinizcə, bu düyünü əmələ gətirən sapları bir-birinin ardınca dartmaqla açmaq mümkündür, yoxsa bu, Qordi düyünüdür, onu yalnız kəsmək olar?

Prezident İlham Əliyev: Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının, digər təşkilatların qətnamələri var. Bu sənədlərin hamısında tələb eynidir- Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Bu, bizim suveren hüququmuzdur.

ARAYIŞ: 2020-ci ilin sentyabr ayı. Dağlıq Qarabağda hərbi münaqişənin yeni mərhələsi. 44 gündən sonra, noyabrın 9-dan 10-na keçən gecə atəşkəs barədə üçtərəfli Saziş Rusiyanın vasitəçiliyi, Prezident Putinin şəxsən iştirakı ilə imzalandı. Qarabağda Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi barədə qərar qəbul edildi.

Prezident Vladimir Putindən sitat: Rusiyanın həlledici töhfəsi sayəsində Dağlıq Qarabağda münaqişə dayandırılıb. Rusiya sülhməramlıları regionda sülhə və təhlükəsizliyə etibarlı təminat verirlər.

Prezident İlham Əliyev: Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yolla nizamladı, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı.

ARAYIŞ: Prezident Əliyevin qərarı ilə Qarabağ "yaşıl enerji" zonası elan edilib. Yaxın 4 ildə orada 240 meqavat gücündə yeni günəş elektrik stansiyası tikiləcək. 2030-cu ilədək bütün ölkədə daha 10 belə layihə həyata keçirilməsi planlaşdırılır.

2016-cı il. Azərbaycan İqlimə dair Paris Sazişini ratifikasiya edir. 2030-cu ilədək istixana effekti yaradan qazların səviyyəsini 35 faiz azaltmaq barədə könüllü öhdəlik götürür. Bu gün ölkədə ümumi enerji istehsalında bərpa olunan enerjinin payı 17 faiz təşkil edir. Ən yaxın hədəf 10 ildən sonra bu rəqəmi ikiqat artırmaqdır.

Mixail Qusman: Son illərdə Azərbaycan çoxlu sayda böyük idman, mədəni, siyasi, iqtisadi tədbirlər, müxtəlif forumlar keçirib. Siz postpandemiya dövründə dünyanı necə təsəvvür edirsiniz? Biz hamımız həmin dünyada yaşamalı olacağıq.

Prezident İlham Əliyev: Dünya artıq başqalaşıb, biz tədricən işin yeni formatına, həyatın yeni formatına, özünütəcrid rejiminə öyrəşirik. Əlbəttə, ünsiyyət çatışmazlığını hiss edirik. Beynəlxalq forumlara gəldikdə isə, siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, artıq Azərbaycan, ilk növbədə, humanitar əməkdaşlıq üçün mühüm məkana çevrilib. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə keçirilən və təşəbbüsündə sizin, Mixail Solomonoviç, şəxsən çox böyük rol oynadığınız Bakı Beynəlxalq Humanitar Forumu da, Mədəniyyətlərarası Dialoq Forumu da, keçirilməsi bu gün təxirə salınmış çoxlu başqa tədbirlər də suallar doğurur: biz onları necə keçirəcəyik? Lakin mənim fikrimcə, əsas məsələ, hər halda, o cümlədən beynəlxalq praktika məsələlərində əməkdaşlığın məzmununu, bu sahədə müsbət təcrübəni qoruyub saxlamaqdır.

Mixail Qusman: 25 il bundan əvvəl, 1997-ci ildə Rusiya və Azərbaycan Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Təhlükəsizlik haqqında Müqavilə imzalayıblar. 2008-ci ildə bu müqavilə Dostluq və Strateji Tərəfdaşlıq haqqında Bəyannamə ilə möhkəmlənib. Şübhə yoxdur ki, ölkələrimiz arasında ikitərəfli münasibətlərin əsasını hüquq bərabərliyi və mehriban qonşuluq prinsipləri təşkil edir. Əslində, bu prinsiplər Rusiya və Azərbaycan xalqları arasında əsrlər boyu yaranmış dostluq, qarşılıqlı hörmət ənənələrinin davamıdır.

Mən Rusiya Prezidenti Vladimir Putin ilə Sizin münasibətlərinizə toxunmaq istərdim. Bilirəm ki, Sizin aranızda yetərincə sıx yoldaşlıq münasibətləri, necə deyərlər, "personal chemistry", şəxsi münasibətlər yaranıb. Siz Rusiyaya səfərlər etmisiniz, Prezident Putin Azərbaycanda olub.

Prezident İlham Əliyev: Sizin qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti ilə biz həm Rusiyada, həm də Azərbaycanda yetərincə tez-tez görüşürük. Buna görə bizim ünsiyyətimiz və görüşlərimiz qarşılıqlı fəaliyyətimizin inkişafına çox müsbət təkan verir, qarşılıqlı siyasi fəaliyyət də çox yüksək səviyyədədir.

Mixail Qusman: Keçən il dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev 60-cı doğum gününü qeyd etdi. Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin bu yubiley münasibətilə İlham Əliyevi səmimi təbrik etdi.

Prezident Vladimir Putindən sitat: İlk növbədə, onun ölkəsinə əmin-amanlıq, firavanlıq arzu edirəm. Ona görə ki, mən onu neçə illərdir tanıyıram. Yüksək vəzifə tutan hər hansı abırlı insan kimi onun da həyatının əsas məqsədi ondan ibarətdir ki, ölkəsi üçün yaxşı olsun, insanlar üçün, Azərbaycan xalqı üçün yaxşı olsun. Mən ona, ilk növbədə, həyati məqsədlərinin, niyyətlərinin reallaşmasında uğurlar diləyirəm. Əlbəttə, ona firavanlıq, cansağlığı arzu edirəm. Nəyisə dolaşıq salacağımdan qorxuram, məncə Azərbaycan folklorunda bir atalar sözü var: "Həqiqi dost yüz ildən sonra da dostdur". O bilməlidir ki, onun dostları var, o cümlədən Rusiyada da. Ümidvarıq ki, o da bizə, Rusiyaya eyni hisslər bəsləyir. Ona ən xoş arzularımı bildirirəm və yubileyi münasibətilə təbrik edirəm.

ARAYIŞ: 2024-cü ilə qədər olan dövrdə Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə fəaliyyət planı 5 yol xəritəsində əks olunub. Bu xəritələr çərçivəsində ticarətdə maneələrin aradan qaldırılması; nəqliyyat infrastrukturunun inkişafı; elmtutumlu birgə istehsalatlar yaradılması; qarşılıqlı turist mübadilələrinin artırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev: Əlbəttə, humanitar sahədə əməkdaşlığı hökmən qeyd etmək lazımdır və Rusiya Prezidenti ilə biz həmişə belə edirik. Fikrimcə bu, qonşular arasında əməkdaşlığın nümunəsidir. Azərbaycanda təhsilin rus dilində olduğu 330-dan çox məktəbin, Rusiyanın aparıcı ali məktəblərinin filiallarının mövcud olması və yetərincə zəngin mədəni proqramın olması Rusiyada çox yüksək qiymətləndirilir. Biz daim əlaqə saxlayırıq, yaxın dostlar və tərəfdaşlar kimi işləyirik.

Mixail Qusman: Bu gün Azərbaycan gələcəyə istiqamətlənib. İqtisadi islahatlar uğurla inkişaf edir, kənd təsərrüfatı və sənaye yüksək səmərəlilik nümayiş etdirir. Biznes üçün gözəl şərait yaradılıb. Azərbaycan xalqı quruculuqla məşğuldur. Əlbəttə, çox iş görülüb, lakin ölkənin daha da firavanlaşması üçün Prezident Əliyev qarşıya daha yüksək məqsədlər və genişmiqyaslı vəzifələr qoyur.

Göründüyü kimi, verilişdə Azərbaycan haqda obyektiv və dolğun məlmatlar verilib. Azərbaycan Prezidenti İlham Əliyev isə ölkəmizin inkişaf strategiyası, əhalinin sosial müdafiəsi, iqtisadi proqramlar, həmçinin dünya ölkələri ilə əməkdaşlığı haqda çox maraqlı fikirlər səsləndirib.

Bu fikirləri bir növ Azərbaycanın 30 illik həyatı və özünün 18 illik rəhbərliyi dövrünün dünya ictimaiyyəti qarşısında qısa hesabatı saymaq olar. Həmçinin, ölkəmizin gələcək inkişaf strategiyasının konturları burada açıq ifadə olunub. Dünyanın ən tanınmış jurnalistlərindən olan Mixail Qusman Prezident İlham Əliyevin Azərbaycanı dünyanın ən nüfuzlu ölkələri sırasına çıxardığını bildirir. Və bunu təkcə o yox, dünyanın bütün nüfuzlu şəxsləri etiraf edir. Hesab edirik ki, bu Azərbaycan Prezidentinin böyük uğurudur.

***Elçin Bayramlı***

# Əlcəzair və Türkiyə KİV-ləri Prezident İlham Əliyevin AZƏRTAC-a müsahibəsinin əsas məqamlarını yayımlayıblar

**Əlcəzairin "Əl Hərir" portalında Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə səfəri zamanı AZƏRTAC-a müsahibəsinin əsas məqamları yayımlanıb.**

Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyev müsahibəsində İkinci Qarabağ müharibəsi dövründə Gəncənin cinayətkar Ermənistan ordusu tərəfindən dəfələrlə bombalandığını, şəhərə 13 raket atıldığını, onlardan 8-nin partlayaraq insanların həyatına son qoyduğunu deyib. Bu namərd atəş nəticəsində Gəncə şəhərində 26 mülki vətəndaşın erməni faşizminin qurbanı olduğunu xatırladan Azərbaycan dövlətinin başçısı bildirib: "Gəncə şəhəri həm "Toçka-U", həm "SCUD" raketləri ilə atəşə tutulurdu. Biz bu məsələ ilə bağlı öz sözümüzü deyəndə Ermənistan tərəfi bunu inkar edirdi. Sonra da yalançı Ermənistan təbliğatı növbəti uydurma ortaya qoyaraq bəyan etmişdi ki, Azərbaycan özü öz şəhərlərini atəşə tutur. Görün nə dərəcədə alçaqlıq və vicdansızlıqdır".


“İkinci Qarabağ Müharibəsindən sonra da Gəncə öz sözünü deyir və deməlidir”, İ.Əliyev

Xəbərdə qeyd olunub ki, Prezident İlham Əliyev ballistik raketlərin trayektoriyasının böyük dövlətlər tərəfindən izlənildiyini bildirib və hər kəsin erməni ordusunun gecə vaxtı dinc şəhəri, müharibə zonasından uzaqlarda yerləşən şəhərin məhz yaşayış məhəllələsini məqsədyönlü şəkildə atəşə tutduğunu gördüyünü söyləyib. Prezident İlham Əliyev əlavə edib: "Yəni, bu, təsadüfən açılan atəş deyildi, məqsədyönlü şəkildə yaşayış binasını vurmaq, Azərbaycan vətəndaşlarını öldürmək, Azərbaycan xalqının gözünü qorxutmaq, Azərbaycan rəhbərliyini torpaqların azad edilməsindən çəkindirmək məqsədi daşıyırdı. Əlbəttə, bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır".

Prezident İlham Əliyevin yanvarın 30-da Gəncə şəhərinə səfəri çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a verdiyi müsahibənin tam mətni "TRT-Azərbaycan" radiosunun rəsmi saytında da operativ şəkildə yayımlanıb.

Müsahibədə prezidentlik dövründə Gəncəyə 18 dəfə səfər etdiyini diqqətə çatdıran dövlətimizin başçısı əminliklə bildirib ki, Azərbaycanın ikinci böyük şəhərinin inkişafı, eləcə də genişlənməsi, müasirləşməsi və yüksək təchizatı hər zaman prioritet olub. Müsahibəsində İkinci Qarabağ müharibəsinin nəticələrinə geniş yer ayıran Prezident İlham Əliyev terrorçu Ermənistanın Gəncədə törətdiyi ağır cinayətlərin səbəb və məqsədləri barədə də müfəssəl məlumat verib.

İşğalçı niyyətli Ermənistanı faşizm ideologiyasından bəhrələnməkdə kəskin ittiham edən Prezident İlham Əliyev deyib: "Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir".

# Britaniyalı dövlət naziri: "Xocalı qətliamı Azərbaycan tarixinin faciəvi səhifələrindən biridir"

Böyük Britaniya hökuməti Xocalı soyqırımının 30-cu ildönümü ərəfəsində bu faciəyə münasibətini bildirib. AZƏRTAC xəbər verir ki, Parlamentin İcmalar Palatasının üzvü, Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmən tərəfindən hökumətə ünvanlanmış yazılı müraciətdə hökumətin faciəyə münasibəti sorğu edilib. Hökumətin mövqeyi Xarici İşlər nazirinin müavini, Avropa məsələləri üzrə dövlət naziri Kris Hiton-Harris tərəfindən təqdim olunub.



Bləkmənin sualına cavab olaraq dövlət naziri Xocalı qətliamını Azərbaycan tarixinin faciəvi səhifələrindən biri kimi səciyyələndirib. O, Xocalı soyqırımının baş verdiyi dövrdə iqtidarda olmuş Birləşmiş Krallıq hökumətinin həmin hadisələri sərt şəkildə qınadığını xatırladıb. Dövlət naziri, həmçinin belə faciələrin gələcəkdə baş verməməli olduğunu vurğulayıb.

# Sovet əfsanəsi ilə maraqlı müsahibə:
# Heydər Əliyev və Müslüm Maqomayevlə...

Fevralın 1-də Sovet əfsanəsi Lev Leşşenko 80 illik yubileyini qeyd edəcək. Ənənəvi olaraq, sənətçi ad gününü böyük konsert proqramı ilə qeyd edir. Yubiley tarixi ərəfəsində Lev Valeryanoviç "Moskva-Baku" portalına müsahibə verib. Konsert çərçivəsində pərəstişkarları üçün nələr hazırladığından danışan müğənni Sovet Azərbaycanına qastrol səfərini, həmçinin Heydər Əliyev və Müslüm Maqomayevlə dostluğunu xatırladıb.



***- Crocus City Hallda "Şir bürcü" adlı yubiley konserti keçiriləcək. Tamaşaçıları nə ilə sevindirəcəksiniz?***

- Yubiley konserti üçün xüsusi dekorasiyalar hazırlanıb. Təkcə qızıl hitlərimi deyil, yeni mahnıları da ifa edəcəyəm. Yubiley axşamı qonaqlar olmadan keçməyəcək. Çox ümid edirəm ki, Aleksandra Nikolaevna Paxmutova, David Tuxmanov, İqor Krutoy, Aleksandr Rozenbaum gələcək. Şübhəsiz ki, dostlarım olacaq: Jasmin, Alsu, Zara. Uşaqlar: Buynov, Qlızin, Marşal, Mixaylov, Pavliaşvili, Meladze. Sankt-Peterburqdan Saşa Malinin, Lara Dolina, İqor Kornelyuk gələcəklərini gözləyirəm. Daha bir neçə sürpriz olacaq.

***- 60 ildir səhnədəsiniz. Siz karyeranız ərzində bir çox şəhərlərə, ölkələrə səyahət etmisiniz və təbii ki, Azərbaycanda olmusunuz. Sizi Sovet dövrünün Bakısı da qəbul edib. Sovet Azərbaycanı ilə bağlı hansı xatirələriniz olduğunu deyə bilərsinizmi?***

- Bəli, doğrudan da, müxtəlif vaxtlarda Azərbaycanda çıxış etmişəm. Sovet İttifaqı dövründəki bütün səfərlərim məndə parlaq, hadisələrlə zəngin təəssüratlar yaratdı. O vaxt biz Sovet mahnılarını ifa edirdik və onlar zamanla həmahəng idi, hadisələrlə zəngin idi və xalqımızın həyatını, arzularını, perspektivlərini, qlobal dəyərlərini əks etdirirdi. Bütün bunlar güc strukturları tərəfindən xüsusilə müsbət qarşılandı, çünki sistemə işləyən bir ideologiya var idi. Və deməliyəm ki, o, pis deyildi. Mən o illəri böyük hörmət və dərin rəğbətlə xatırlayıram.

Mən tez-tez Azərbaycanda olurdum, müxtəlif bayramlarda çıxış edirdim, Heydər Əliyevi yaxşı tanıyırdım. Biz kifayət qədər yaxından əlaqə saxlayırdıq. O, elə ehtiraslı, sənəti çox sevən humanist insan idi ki. O, çox şey bilirdi, Puşkinin şeirlərini sevirdi. Daha sonra Heydər Əliyev Bakıda Puşkinin abidəsini açdı. Mən bu abidənin açılışında olmuşam... Bakı ilə bağlı çox gözəl xatirələrim var, ümumiyyətlə, Azərbaycanın mənim ruhumda həmişə xüsusi yeri var.

***- Müasir Bakı da qonaqpərvərdirmi? Şəhər, insanlar dəyişibmi?***

- Müasir Bakı təbii ki, dəyişib. Bu şəhər gözəldir! İndiki prezident İlham Əliyev respublikanın inkişafı və çiçəklənməsi üçün hər şeyi edir. Azərbaycanın çox gözəl sosial proqramı var. Bu gün isə Azərbaycan keçmiş Sovet məkanı ölkələri sırasında ən çiçəklənən respublikalardan biridir. Azərbaycana və orada yaşayan insanlara böyük hörmətim var.

***- Azərbaycan dünyaya çoxlu görkəmli yaradıcı insanlar bəxş edib. Müslüm Maqomayev sizin dostunuz idi...***

- Bəli. Azərbaycan çoxlu istedadlı insanların doğulduğu yerdir. Ən görkəmlilərdən biri ilə dost olmaq şərəfinə nail oldum- Müslüm Maqomayevlə. Dostluğumuz sayəsində mən Azərbaycanı tanıdım, bir çox maraqlı insanlarla, respublikanın tanınmış şəxsləri ilə tanış oldum. Azərbaycan ictimaiyyəti qarşısında çıxış etmək imkanı qazandım. Sonradan mənim üçün müasir Bakını və İçərişəhəri açan Araz Ağalarovla dost oldum. Gəldik, Eminlə, Arazla danışdıq. Bakı ilə ən yaxın əlaqələrim olub və indi də var.

***- Müasir gənc azərbaycanlı sənətçilərlə duet oxumaqla bu sıx əlaqələri möhkəmləndirmək fikrində idiniz? Üstəlik, yaxşı təcrübəniz var, bu yaxınlarda reper Loc-Dog ilə "Biz yaşayacağıq" mahnısını yazdıraraq əməkdaşlıq təqdim etdiniz.***

- Əgər Emini Azərbaycan sənətçisi adlandırmaq olarsa və müəyyən mənada bu mümkündürsə, o zaman fevralın 1-də Crocus City Hallda keçiriləcək yubiley konsertində onunla əməkdaşlıq edəcəyik. Onlar Aleksey Vorobyovla rok-n-roll oxuyacaqlar, mən də orada onlarla birlikdə oxuyacağam (gülür). Konkret azərbaycanlı sənətçidən danışırıqsa, indi Azərbaycanda daha çox gənc ifaçılar var. Bizim nəsildən çox az qalıb. Amma gənclərlə birlikdə oxumağım yəqin ki, düzgün olmayacaq (gülür).

***- Heç Bakıda ad gününüzü qeyd etmisiniz?***

- Ad günümü Bakıda keçirə bilmədim. Bu bayramı həmişə Moskvada qeyd etmək ənənəm var. Amma onu deyə bilərəm ki, Bakıda bir çox əlamətdar tədbirlərdə olmuşam, orada çoxlu tanışlar var idi. Sonra hamımız böyüdük və daha az ünsiyyət qurmağa başladıq.

***- Pərəstişkarlarınızın "Şir bürcü" adlı yubiley konsertinizi Bakı səhnəsində görmək imkanı olacaqmı?***

- Tamamilə mümkündür ki, Bakıda konsert vermək mümkün olsun. Sadəcə, anlamaq lazımdır ki, oraya çoxlu sayda dostlarımı, sənətçilərimi, 27 nəfəri necə gətirim. Bunu həyata keçirmək çox çətin olacaq. Amma bu konsertdən bir fraqment ola bilər ki, Bakıda baş tutsun. Təklif yaxşıdır, bu barədə düşünəcəyik.

***- Yubiley ilində nəyə nail olmaq istərdiniz?***

- İndi hamımız sağlamlıqla maraqlanırıq və yaş artıq özünü hiss etdirir, baxmayaraq ki, ürəyimdə 45 yaşım var, sağlam qalmaq və irəli getmək istəyirəm. Gələcək yaradıcılıq və yaradıcılıqdır, ona görə də yaradıcılığımı tərk etmək istəmirəm. Mən lap yaxında vinil klassik plastinka buraxdırdım, köhnə opera yazılarımı və romanslarımı birləşdirdim. 40-a yaxın mahnının olduğu 4 albom yazıldı. Bu iş, iki il yarım pandemiya müddətinə aiddir. İstəyirəm ki, irəliləməyə davam edim. Reper Loc-Dog ilə mahnıda necə oxuyuram - Biz yaşayacağıq, yaşayacağıq!

***Tərcümə - Elçin Bayramlı***

# İslam aləminin qədim və nüfuzlu şəhəri Gəncə

Özünün ictimai-siyasi, sosial-iqtisadi həyatında uğurlar əldə edən Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə, bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırır. Bu nailiyyətlər müstəqil dövlətimizin sürətli inkişafına təkan verən uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir. Müasir Azərbaycan dövlətinin Qurucusu, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Azərbaycanın qarşısında böyük imkanlar açır. Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, layihələr, aparılan uğurlu islahatlar bütün bölgələrimizin inkişafına, müasirləşməsinə səbəb olub. Azərbaycanın hər yerində olduğu kimi, bu gün qədim tarixə malik olan Gəncə də yeni inkişaf dövrünü yaşayır. Gəncə Azərbaycanın qədimliklə müasirliyi, Şərq memarlıq üslubu ilə Qərb modernizminin üzvi şəkildə birləşdirən şəhərlərindən birinə çevrilib. Yeni yollar salınır, infrastruktur layihələr reallaşır, yeni parklar yaradılır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə 18 dəfə Gəncədə olması və daim Gəncəyə diqqət göstərilməsi onun inkişafına müsbət təsirini göstərib. Dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, şəhər inkişaf edir. Şəhərdə həyata keçirilən tədbirlər nəticəsində yeni tikililərlə yanaşı, qədim, tarixi abidələr yenidən bərpa edilir. Ölkə başçısının Gəncəyə səfərləri çərçivəsində bir sıra obyektlərin açılışında iştirak edib. Bu gün Gəncənin gözəlliyinə naxış salan məkanların sayı kifayət qədərdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərinə səfəri çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə müsahibəsində bildirdiyi kimi, "Mənim Gəncəyə Prezident kimi 18-ci səfərimdir. Belə çıxır ki, orta hesabla hər il Gəncədə səfərdə oluram. Elə illər olub ki, iki dəfə olmuşam. Həm ona görə ki, Gəncə Azərbaycanın ikinci şəhəridir və bu şəhərə daim diqqət həmişə yüksək səviyyədə olub. İkincisi, ona görə ki, bir çox layihələr Gəncə şəhərində icra edilib və bu layihələrin icrası davam edir. Gəncə şəhərinin kompleks inkişaf planı həm təsdiqlənib, həm də uğurla icra edilir. On səkkiz ildir ki, Mən ölkə Prezidentiyəm və 18 dəfə Gəncədə olmuşam".



## Prezident İlham Əliyev:

*"Gəncə Azərbaycanın ikinci şəhəridir və bu şəhərə daim diqqət həmişə yüksək səviyyədə olub"*






Bu gün yeni inkişaf dövrünü yaşayan Gəncədə sosial məsələlər öz həllini tapıb, infrastruktur yenilənib, şəhərdə abadlıq-quruculuq işləri aparılıb. Belə ki, asfalt yolları, müasir məktəbləri, poliklinikaları var, qazlaşdırma, enerji ilə təminat 100 faizdir. "Son illərdə biz Gəncənin əsas infrastruktur layihələrini icra etməyə çalışdıq və bu layihələrin böyük əksəriyyəti öz həllini tapdı", - deyən Cənab Prezident bildirib ki, elektrik enerjisi ilə təchizat tam öz həllini tapmışdır: "Gəncədə 10 yarımstansiya həm yenidən tikilib, həm də əsaslı təmir edilib. Onların enerji istehsalı gücü 220 meqavatdır, şəhərin tələbatını tam ödəyir. Eyni zamanda, şəhərin artan tələbatı, o cümlədən sənaye potensialı da nəzərə alınacaqdır". Avtomobil yollarının çəkilişinə gəldikdə isə Cənab Prezident Gəncəyə gedən yolların tam müasirləşdirildiyini bildirib: "Həm Bakı-Gəncə avtomobil yolunun, həm də Gəncə-Qazax-Gürcüstan sərhədi yolunun çəkilişi başa çatıb. İndi biz bu yolu iki zolaqdan dörd zolağa genişləndiririk. Eyni zamanda, Gəncədən digər şəhərlərə - Göygöl, Daşkəsən şəhərlərinə gedən yollarda da əsaslı təmir işləri aparılmışdır".

### "GƏNCƏNİN MƏDƏNİ HƏYATINA TÖHFƏ VERƏ BİLƏCƏK HƏR BİR TƏŞƏBBÜS DƏSTƏKLƏNMƏLİDİR"

Əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olan dini abidə "İmamzadə" Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin təmiri və bərpasına xüsusi diqqət göstərmişdir. İnsanların inam və inanc yeri kimi üz tutduqları bu məbəd məhz dövlətimizin başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb. Qafqazın ən qədim parklarından biri, yaşı 200-dən çox olan və bitki florasının zənginliyinə görə bütün ölkədə məşhur olan "Xan bağı" da bu gün yenidən qurulub. Yenidənqurma işləri ilk dəfə məhz Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilib. Burada fəvvarələr, müasir işıqlandırma sistemi quraşdırılıb, Venesiya guşəsi yenidən qurulub, 350 yerlik yaşıl teatr inşa olunub. Görülən işlərin davamı olaraq, dövlət başçısının Gəncəyə səfəri çərçivəsində Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışı olub.

Gəncə Dövlət Dram Teatrının 2014-cü ildə təməli qoyulan yeni binasında 478 yerlik böyük tamaşaçı zalı, 22 tamaşaçı yerlik lojalar və 120 yerlik kiçik tamaşaçı zalı var. Yeddimərtəbəli binada, həmçinin iki zaldan, 135 eksponat və rəsm əsərlərindən ibarət Gəncə Teatr Muzeyi, zəngin kitabxana, xoreoqrafiya zalı, qrim otaqları, mehmanxana, kafe və digər zəruri infrastruktur yaradılıb. Bir sözlə, teatrın yeni binasında tamaşaların nümayişi üçün müasir texniki şərait təmin edilib, yaradıcı heyətin məşqləri ilə bağlı bütün məqamlar nəzərə alınıb. Cənab Prezident "Həm memarlıq, həm də funksionallıq baxımından çox gözəl, möhtəşəm Dram Teatrı açıldı", - deyərək ölkə qarşısında bir çox problemlərin və bu problemlərin təxirəsalınmaz olduğunu da diqqətə çatdırıb: "Amma buna baxmayaraq, mədəniyyətə, şəhərin, Gəncənin mədəni həyatına töhfə verə biləcək hər bir təşəbbüs dəstəklənməlidir. Neçə ki, bir neçə il bundan əvvəl Gəncə Filarmoniyası açıldı. Baxın, bu Filarmoniyanın açılması Gəncə şəhərinin mədəni həyatına nə qədər töhfə veribdir, eyni zamanda, şəhərin ümumi görünüşünə gözəl töhfə olubdur. Çünki memarlıq baxımından çox gözəl bir binadır. Dram Teatrı da çox möhtəşəm binadır və orada artistlər, truppa üzvləri və tamaşaçılar üçün gözəl şərait yaradılıb".

Ardı Səh. 6

Əvvəli Səh. 5

# İslam aləminin qədim və nüfuzlu şəhəri Gəncə

## Prezident İlham Əliyev: "Gəncə Azərbaycanın ikinci şəhəridir və bu şəhərə daim diqqət həmişə yüksək səviyyədə olub"



### GƏNCƏ İDMAN SARAYI ÖLKƏMİZİN ƏN BÖYÜK İDMAN SARAYIDIR

Dövlət başçısının Gəncəyə səfəri çərçivəsində Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə də tanış olub. İkimərtəbəli Gəncə İdman Sarayında böyük idman zalı, üzgüçülük hovuzu, beynəlxalq turnirlərin keçirilməsi üçün məkan, şahmat, güləş, boks və idmanın digər növləri üzrə məktəblər fəaliyyət göstərəcək. Xatırladaq ki, dövlətimizin başçısı 2020-ci il iyunun 24-də Gəncəyə səfəri çərçivəsində bu idman qurğusunda inşaat işlərinin gedişi ilə tanış olmuş, müvafiq tapşırıqlarını vermişdi. Bundan sonra obyektdə tikinti işlərinin sürəti daha da artmışdır. "Bu sarayı da Mənim təşəbbüsümlə inşa etməyə başlamışıq. Bu, çox böyük layihədir. Deyə bilərəm ki, Azərbaycanda bu boyda idman sarayı yoxdur, hətta Bakı şəhərində. Baxmayaraq ki, Bakı şəhərində bir çox idman sarayları var, - ancaq bütün əsas idman növlərinin bir yerdə cəmləşməsi Bakıda yoxdur. Burada isə həm döyüş idman növləri, güləş, boks, həm məktəblər - güləş məktəbi, boks məktəbi, həmçinin əl oyunları üçün xüsusi zal - basketbol, voleybol, həndbol, 50 metrlik üzgüçülük hovuzu, yardımçı otaqlar və zallar, otel. Yəni, bir daha demək istəyirəm ki, bu, ölkəmizin ən böyük idman sarayıdır. Bu sarayı Gəncədə inşa etmək gəncəlilərə edilən bir hədiyyədir". Gəncədə "Azərbaycan Dəmir Yolları" QSC-nin lokomotiv deposunun istismara verilməsi dördüncü regional inkişaf proqramı çərçivəsində icra olunan növbəti layihə Gəncə lokomotiv deposudur. Yeni depoda dəyişən cərəyanla işləyən elektrovozların texniki xidməti və təmiri işləri həyata keçiriləcək. 2021-ci ilin noyabrında açılışı olan Biləcəri lokomotiv deposu ilə bərabər, Gəncə deposu Azərbaycan Hökuməti ilə Fransa İnkişaf Agentliyinin birgə maliyyəsi hesabına inşa edilib. Gəncə lokomotiv deposunun istismarı enerji resurslarına qənaətə, xərclərin azalmasına, təmir və texniki xidmətin optimallaşdırılmasına, istismarın etibarlılığının artırılmasına və fasiləsiz daşımaların təmin olunmasına imkan yaradacaq.

### "ASAN XİDMƏT"İN XÜSUSİYYƏTLƏRİNDƏN BİRİ HƏM ŞƏFFAFLIQDIR, MÜASİR XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİDİR, HƏM DƏ RAHATLIQDIR"

Cənab Prezident ölkə üzrə sayca iyirmi ikinci 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzin də açılışını da edib. Gəncə şəhəri, Şəmkir, Gədəbəy, Göygöl, Goranboy, Samux, Naftalan, Kəlbəcər və Xocalı rayonlarını əhatə edən bu bölgədə qeydiyyatda olan ümumilikdə 1 milyona yaxın insan var. Lakin Mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək. Mərkəzdə vətəndaşlara müxtəlif dövlət qurumları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 320-dən çox xidmət göstəriləcək. Mərkəzdə əməkdaşların sayı 208, könüllülərin sayı 85 nəfər nəzərdə tutulur. "ASAN xidmət" Mərkəzinin işçilərinin sayı 40 nəfərdir ki, onlar da əsasən şəhid ailəsi üzvləri, qazilər və ASAN könüllülərindən təşkil olunub. "Bir neçə il bundan əvvəl Gəncədə "ASAN xidmət" Mərkəzi açılmışdır", - deyən Cənab Prezident bildirib ki, ancaq tələbat o qədər böyükdür ki, növbələr yarandı: "Əlbəttə ki, "ASAN xidmət"in xüsusiyyətlərindən biri həm şəffaflıqdır, müasir xidmətlərin göstərilməsidir, həm də rahatlıqdır. Ona görə biz xidmətin adını "ASAN" qoymuşuq. Əgər növbə yaranırsa və insanlar saatlarla növbədə dayanırsa, bu, artıq "ASAN xidmət" olmadı. Ona görə mənim göstərişimlə ikinci "ASAN xidmət" Mərkəzi yaradıldı, birincidən daha böyük. Bu xidmət artıq bu gün rəsmən açıldı və bir neçə gündən sonra öz qapılarını vətəndaşların üzünə açacaq. Beləliklə, növbələr artıq aradan götürüləcək". Dövlət başçısı müsahibəsində "Gəncənin inkişafı və şəhərin problemlərinin həlli daim diqqət mərkəzindədir. Həm də, onu göstərir ki, baxmayaraq, bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara - Qarabağa və Zəngəzuradır, eyni zamanda, bütün başqa şəhər və rayonlarımız daim diqqətlə əhatə olunur", - deyə bildirib: "Əgər mənim təkcə bugünkü proqramıma nəzər salsaq, görərik ki, bir çox önəmli obyektin açılışı oldu, təməlqoyma mərasimi oldu." Təməlqoyma mərasimlərindən biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi ərzində erməni faşist ordusu tərəfindən dağıdılmış ərazidə Memorial Kompleksin təməlinin qoyulması oldu.

### "İKİNCİ QARABAĞ MÜHARİBƏSİ DÖVRÜNDƏ GƏNCƏ DƏFƏLƏRLƏ CİNAYƏTKAR ERMƏNİSTAN ORDUSU TƏRƏFİNDƏN BOMBALANIB"

44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üzüzə qaldı. Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük Vətən müharibəsində beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı, eyni zamanda, terrorçu dövlət olduğunu tam şəkildə sübuta yetirən yetərincə faktlar mövcuddur. Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu. Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Vətən müharibəsi zamanı düşmənin xain atəşi nəticəsində təkcə Tərtərdə ümumilikdə 16 mülki şəxs qətlə yetirilib, 63 nəfər yaralanmışdır. Müharibə zamanı, həmçinin Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılmışdı. Moskvada imzalanan humanitar atəşkəs rejimindən sonra Ermənistan silahlı qüvvələrinin qədim Gəncəni raket atəşinə tutması nəticəsində mülki obyektlərə və yaşayış məhəllələrinə aramsız atəşlər yağdırıldı. Çoxlu dağıntılar oldu, insanlar həlak oldu, yaralandı. Onların arasında uşaqlar və qadınlar da var. Gəncədə mülki insanların məskunlaşdığı əraziyə raket hücumu bir daha Ermənistanın günahsız insanları, uşaqları, qadınları hədəfə alaraq ardıcıl olaraq bu cür çirkin hücumlara əl atması onun faşizm xislətini və cinayətkar mahiyyətini bir daha sərgiləyir.

Vətən müharibəsi dövründə Gəncə şəhəri oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı "Toçka-U", "Smerç", "SCUD" və digər raket qurğularından endirilən zərbələrə məruz qalıb. Nəticədə 6-sı uşaq olmaqla, 26 mülki şəxs həlak olub, 31-i uşaq olmaqla, 142 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Cənab Prezident bildirib ki, İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i partlayaraq əfsuslar olsun ki, insanların həyatına son qoyub, beş raket isə partlamayıb: "Bu da öz növbəsində onu göstərir ki, Ermənistan ordusu nə vəziyyətdə idi. Ancaq bu namərd atəş nəticəsində həlak olan vətəndaşlarımız yaşamalı idi". Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışır. Yatmış insanlara qarşı törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Bu beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığmır. "Azərbaycan Ordusu müharibə dövründə belə cinayətlərə əl atmayıb, biz müharibəni ləyaqətlə aparmışıq, biz döyüş meydanında düşmənə cavab vermişik", - deyən dövlət başçısı qeyd edib ki, Gəncə və digər şəhərlər - Mingəçevir, Bərdə, Tərtər, Goranboy, Ağdam rayonu, Füzuli rayonu, Naftalan bombalananda mən deyirdim ki, biz döyüş meydanında qisasımızı alacağıq. Biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq: "Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir".

### "HEÇ VAXT ERMƏNİ VƏHŞİLİYİNİ, ERMƏNİ FAŞİZMİNİ UNUTMAMALIYIQ"

"Bu gün, burada təməlini qoyduğum Memorial Kompleks böyük ərazini əhatə edəcək", - deyən Prezident bildirib ki, bu Memorial Kompleks təqribən dörd hektarda yaradılacaq: "Dağıdılmış bu binalar olduğu kimi qalacaq. Yəni, bu yaddaş silinməməlidir. Bu erməni vəhşiliyini unutmamalıyıq. Müharibə başa çatıb. Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı. Onların yaxınları üçün bəlkə də bu, təsəlli ola bilər. Eyni zamanda, deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizmini məğlub etdik. Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın."

İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub. Humanizm prinsipinə hörmətsizlik edən, beynəlxalq hüququn normalarını, qanunvericiliyi kobud şəkildə pozan Ermənistan rəhbərliyi bütün hərbi cinayətlərə görə cavab verməlidir. Azərbaycan 44 günlük Vətən müharibəsində uğurlu döyüş əməliyyatı apardı və tarixi ədalət bərpa olundu. Təcavüzkar ermənilərin çirkin siyasətləri iflasa uğradı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə Azərbaycan Zəfər qazandı. 30 illik bir həsrətə son qoyuldu və tarixi torpaqlarımız işğaldan azad olundu. Azərbaycan bu gün işğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işlərinə start verib və genişmiqyaslı layihələr icra olunur.

**Zümrüd BAYRAMOVA**

**"Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir". Ulu Öndər Heydər Əliyev bu fikirləri xalqımızın gələcəyi olan gənclərimiz üçün səsləndirmişdir. Hər il 2 fevral ölkəmizdə Gənclər Günü kimi qeyd edilir. Ulu Öndərin gənclər siyasətini bu gün də uğurla davam etdirən cənab Prezident İlham Əliyev gənclərin maariflənməsi, inkişafı üçün böyük addımlar atmışdır. Cənab Prezidentin fəaliyyətində gənclər siyasəti əsas prioritetlərdən biridir. İlham Əliyevin gənclərə olan diqqəti hər zaman göz önündədir. SİA olaraq 2 fevral Gənclər Günü ilə bağlı gənclər təşkilatları arasında sorğu keçirdik:**




# Biz gənclərin həyata keçirə biləcəyi işlər xeyli çoxdur

**"İrəli" İctimai Birliyinin İdarə Heyətinin üzvü, mətbuat katibi Əfsanə Şükürova:** "Gənclik hər



bir cəmiyyətin inkişafının, gələcəyinin əsasını təşkil edir. Buna görə də gənclərin formalaşması və onların təlim-tərbiyə modelinin sağlam şəkildə təşkil olunması dövlətin qarşısında duran prioritetlər sırasındadır. Düşünürəm ki, Azərbaycanın dövlət gənclər siyasətindən danışarkən Ulu Öndər Heydər Əliyevin adını xüsusi qeyd etmək lazımdır. Məhz onun hakimiyyəti dövründə bütün sahələrdə olduğu kimi gənclər sahəsində də böyük işlər görülməyə başlandı. 2 fevral 1996-cı ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycan gənclərinin ilk forumunun həyata keçirilməsi bu istiqamətdə atılan əsaslı addımların başlanğıcı oldu. Gəncliyə göstərilən xüsusi diqqət və qayğının nəticəsində 2 fevral tarixi Azərbaycan Gəncləri Günü kimi elan edildi.

Ümummilli liderin həyata keçirdiyi uğurlu fəaliyyət strategiyası Prezident İlham Əliyevin dövründə daha da möhkəmlənib. Xüsusilə onu qeyd edə bilərik ki, bu müddət ərzində gənclərimizin milli ruhda, Vətənə sədaqət məfkurəsində formalaşması məsələləri ön planda olub. 2005-2009, 2011-2015 və 2017-2021-ci illər üzrə "Azərbaycan Gəncliyi" dövlət proqramları, 2015-2025-ci illərdə "Azərbaycan Gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi, paytaxtda və bölgələrimizdə yeni gənclər mərkəzlərinin yaradılması bu siyasətin uğurla davam etdiyini bir daha ortaya qoyur. Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsində Azərbaycan gəncləri bir yumruq tək Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşərək istər ön, istər arxa, istərsə də, informasiya cəbhəsində yüksək qəhrəmanlıq göstərmişlər. Prezident İlham Əliyevin öz çıxışlarında onun dövründə formalaşan gənclərin ümummilli məsələlərdə fəallığını xüsusi qeyd etməsi hər bir Azərbaycan gəncini qürurlandırır: "Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər".

Gənclər təşkilatı olaraq bizim üzərimizə düşən məsuliyyət dövlətin bu istiqamətdə həyata keçirdiyi siyasətə öz dəstəyimizi göstərməkdir. Artıq 14 ildir ki, "İrəli" İctimai Birliyi olaraq gənclərin fərdi inkişafı, onların maarifləndirilməsi, vətənpərvər və milli ruhda tərbiyə alması istiqamətində beynəlxalq rəqabətə davamlı gəncliyin formalaşması istiqamətində layihə və tədbirlər həyata keçiririk. Xüsusilə son illərdə region gənclərinin şəbəkələşməsi və inkişafı əsas prioritet istiqamətlərimizdəndir. Birliyimiz ötən il ərzində 150-dən çox fəaliyyət icra edib, bu fəaliyyətlərdən 3500-dən çox gənc yararlanıb. Həyata keçirdiyimiz layihə və tədbirlərdə əsas məqsəd bütün ölkə gəncliyini əhatə etmək, 44 günlük Vətən müharibəsindən ilhamlanaraq gənclərimizin zəfər ruhunda formalaşmasını təmin etməkdir. İnanırıq ki, gələcək fəaliyyət müddətində də eyni amal uğrunda birləşəcək, ölkəmizin gələcək inkişafı naminə durmadan xidmətlər göstərəcəyik.

2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə "İrəli" komandası adından və şəxsən öz adımdan bütün ölkə gəncliyini təbrik edir və onlara daim irəlidə ol-



mağı arzulayıram".

**Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqının sədri Hacıbaba Mustafayev:** "Qeyd etmək istərdim ki, gənclər sahəsində çox böyük işlər görülüb. Təhsilli, savadlı, dünya görüşü zəngin, bir sözlə hərtərəfli inkişaf etmiş gənclərin yetişməsi üçün dövlət çox mühüm tədbirlər həyata keçirib. Bunun təzahürünü biz bu gün bu sahədə gənclər təşkilatlarının olmasında görürük, gənclərimizin bizi xaricdə təmsil etməsində görürük. Şəxsən öz adıma qeyd etmək istərdim ki, bakalavr təhsili aldığım müddətdə dövlət tərəfindən xaricə göndərilərək ölkəmizi 2 fərqli seminarda təmsil etdim. Bu da ölkəmizdə aparılan gənclər siyasətinin bir nümunəsidir. Həmçinin ətrafımızdakı bugünkü gənclərin inkişafı, onların təhsildə yeni texnologiyaların tətbiqi ilə dünya görüşünün artırılması ilə bağlı çox böyük işlər görülmüşdür.

Cənab Prezident İlham Əliyev hakimiyyətə gəldiyi dövrdən bu yana gənclərə hər zaman xüsusi diqqət və qayğı göstərmişdir. Gənclər siyasəti dövlətin əsas istiqamətlərindədir. Gənclərimizin maarifləndirilməsi üçün bir neçə fəaliyyət sahəsi üzrə planlar həyata keçirilmişdir. Sağlam bədəndə sağlam ruh olur. Bu prinsiplə fərqli regionlarda, bölgələrdə Olimpiya Kompleksləri yaradılmışdır. Bu böyük önəm kəsb edir. Çünki sağlam nəslin formalaşmasında, yetişməsində rol oynayır. İdmanın müxtəlif sahələri ilə məşğul olan gənclərimiz ölkəmizi xaricdə təmsil edir, üçrəngli bayrağımızı dalğalandırırlar. Digər bir tərəfdən ölkəmizdə yaradılan mədəniyyət ocaqları, incəsənət mərkəzləri yaradılmışdır ki, gənclərimizin mədəni-incəsənət xətti üzrə inkişafına təkan verir. Ələxsus da elm sahəsində böyük dəyişikliklər edilmiş, inkişaf etdirilmişdir.

Universitetlərdən əlavə tətqiqat mərkəzləri yaradılır, fərqli intellektual müsabiqələr keçirilir, hər il elmi mövzularda konfranslar təşkil olunur. Bu inkişaf göz önünədir. Öz adıma, bütün gənclik adına gənclərlə bağlı görülən işlərə görə cənab Prezidentə öz minnətdarlığımı bildirirəm. BDU THİK olaraq gənclərin maariflənməsi üçün bir neçə xarici dildə layihələr hazırlamışıq ki, burada Qarabağ həqiqətlərindən bəhs edilib. Həmçinin Xocalı soyqırımının tanıdılması üçün videoçarxlar hazırlanıb. Esse müsabiqələri, qiraət müsabiqələri, elmi məqalə müsabiqələri daima gənclər arasında təşkil olunur. Bunlar fəaliyyətimizin kiçik bir hissəsini əhatə edir. Biz bunları rahat şəkildə həyata keçirə bilirik, çünki ölkəmizdə gənclərə göstərilən böyük bir qayğı var və gənclərin inkişafına daim təkan verilir. Ümid edirəm ki, Azərbaycan gəncliyi dövlətimizin gələcək inkişafına yüksək səviyyədə öz töhvəsini verəcəkdir".

**Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədr müavini Əli Əliyev:** "Hamımız bilirik ki, 1997-ci ildə Ümummilli lider cənab Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Gənclər Günü təsis edildi. O, gənclərə həmişə böyük qayğı, sevgi ilə yanaşırdı və yaxşı bilirdi ki, ölkəmizin gələcək iqtisadi inkişafı biz gənclərin əlindədir. Bir qədər sonra Ulu Öndər Gənclər



və İdman Nazirliyini yaratdı. Gənclər və İdman Nazirliyinin mövcud olması gənclər üçün bir sıra yeni imkanlar demək idi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövründə, 2005-ci ildən indiyə kimi dövlət proqramları qəbul edilmişdir. Bölgələrimizdə 40-dan çox Gənclər Mərkəzi, 44 Olimpiya İdman Mərkəzi vardır ki, orada vaxtlarını səmərəli keçirənlərin böyük əksəriyyəti gənclərdir. Gənclər siyasətinin əsas istiqamətləri "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə aşağıdakı kimi müəyyənləşdirilib:

1.Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı;

2. İstedadlı gənclərə dövlət qayğısı;

3. Gənclərin sağlamlığının qorunması və fizik inkişafı;

4. Gənclərin məşğulluğunun təmin edilməsi;

5. Gənclər təşkilatlarına dövlət yardımı

Bu gün biz gənclər müstəqil Azərbaycan Respublikasının vətəndaşlarıyıq. Bu, böyük xoşbəxtlikdir. Ölkəmizin çoxşaxəli inkişafında gənclərimizin rolu misilsizdir. Təxminən bir neçə il əvvəl, cənab İlham Əliyevin təşəbbüsü ilə Elmin İnkişafı Fondu, Gənclər Fondu yaradılmışdır. Bu fondlar vasitəsilə istedadlı gənclərə qrantlar verilir, müxtəlif proqramların reallaşdırılması üçün müəyyən büdcə ayrılır.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) kimi digər gənclər təşkilatlarının təklif etdikləri layihələr dövlətimiz tərəfindən həmişə dəstəklənir. Bu kimi beynəlxalq layihələrdə iştirak etməklə Azərbaycanın inkişafını və gücünü dünya ictimaiyyətinə çatdırırıq.

Bu gün Azərbaycan gəncləri cəmiyyətin bərabər hüquqlu üzvləri kimi ictimai həyatın bütün sahələrində uğurla fəaliyyət göstərirlər".

**Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Bəxtiyar İslamov:** "2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd edilir. Bunu əlamətdar edən başqa bir hadisə də var. Bu il Gənclər Gününün təsis edilməsindən 25 il ötür və bu il Gənclər Gününün 25-ci ildönümünü qeyd edəcəyik. Ümummilli lider Heydər Əliyev tərəfindən 1997-ci ildə verilmiş sərəncamla 2 fevral Gənclər Günü olaraq təsi olunmuşdur. Əslində bu özü-özlüyündə ölkəmizdə gənclərə göstərilən diqqətin ən bariz



nümunələrindən biridir. Digər tərəfdən bu gün Azərbaycanda mövcud olan birbaşa olaraq gənclər sahəsində əlaqələr, təsisatlar, strukturlar, dövlət qurumları, gənclər üçün yaradılan hərtərəfli şərait və bütün dövlət siyasətinin əsas xəttində daim gənclərə diqqət göstərilməsi Azərbaycan gəncliyinə verilən yüksək dəyər və qiymətin göstəricisidir. Biz bunun bariz nəticələrini bir çox hallarda, istər beynəlxalq arenalarda, istər təhsil sahəsində, istərsə də bir çox sferalarda hər zaman görürük. Bunun ən gözəl nümunələrdən biri də Vətən müharibəsində qazanılmış qələbəmizin mütləq əksəriyyətinin Azərbaycan ordusunun gənclərdən təşkil olunması idi.

Prezident cənab İlham Əliyevin ötən ilin yanvar ayında Şuşadakı çıxışında da vurğuladığı bir məqam var idi ki, bu qələbəni qazanan gənclər onun dövründə yetişmiş gənclər idi. Bu da onu göstərir ki, Azərbaycanda gənclər sahəsində aparılan siyasət, gənclər sayəsində həyata keçirilən proqramlar öz müsbət nəticəsini verib. Bu gün formalaşan Azərbaycan gəncliyi nəinki intellektual, mədəni cəhətdən böyük bir potensiala malikdir, eyni zamanda da öz vətəninə, dövlətinə bağlıdır. Təbii ki, bu da biz gənclərin üzərinə çox böyük məsuliyyətlər, yeni tələblər qoyur və göstərilən bu diqqətin, qayğının da bir nəticəsi olaraq Azərbaycan gəncliyi bundan sonra da ölkəmizin müstəqilliyinin qorunub saxlanılmasında, dövlətimizin daha da inkişaf etməsində var gücü ilə əlindən gələn qədər çalışmalıdır. Düşünürəm ki, bu istiqamətdə biz gənclərin həyata keçirə biləcəyi işlər xeyli çoxdur".

***Abutel İlhamqızı***



# “Elə etməliyik ki, ermәni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın”

**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərinə səfəri çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.**

**Müxbir:** Cənab Prezident, öncə suallarımızı cavablandırdığınız üçün minnətdarlığımızı bildiririk. Cənab Prezident, dəfələrlə Gəncə şəhərində olmusunuz, şəhərdə xeyli işlər görülüb. Bu işlər barədə fikirlərinizi bilmək istərdik.

Prezident İlham Əliyev: Bu, mənim Gəncəyə Prezident kimi 18-ci səfərimdir. Belə çıxır ki, orta hesabla hər il Gəncədə səfərdə oluram. Elə illər olub ki, iki dəfə olmuşam. Həm ona görə ki, Gəncə Azərbaycanın ikinci şəhəridir və bu şəhərə daim diqqət həmişə yüksək səviyyədə olub. İkincisi, ona görə ki, bir çox layihələr Gəncə şəhərində icra edilib və bu layihələrin icrası davam edir. Gəncə şəhərinin kompleks inkişaf planı həm təsdiqlənib, həm də uğurla icra edilir. On səkkiz ildir ki, mən ölkə Prezidentiyəm və 18 dəfə Gəncədə olmuşam.

Son illərdə biz Gəncənin əsas infrastruktur layihələrini icra etməyə çalışdıq və bu layihələrin böyük əksəriyyəti öz həllini tapdı. Elektrik enerjisi ilə təchizat tam öz həllini tapmışdır. Gəncədə 10 yarımstansiya həm yenidən tikilib, həm də əsaslı təmir edilib. Onların enerji istehsalı gücü 220 meqavatdır, şəhərin tələbatını tam ödəyir. Eyni zamanda, şəhərin artan tələbatı, o cümlədən sənaye potensialı da nəzərə alınacaqdır.

Qazlaşdırma layihəsi tam icra edilibdir. İçməli su layihəsi hələ ki, icra edilir. Əfsuslar olsun ki, bu layihə bir qədər uzandı. Düzdür, çox genişmiqyaslı layihədir, həm də maliyyətutumlu layihədir, təqribən 800 milyon manat dəyərində olan bir layihədir. Bu layihənin icrası nəticəsində Gəncə şəhərinin içməli su və kanalizasiya problemləri birdəfəlik həll olunacaq. Mənə verilən son məlumata görə, hazırda bu layihənin icrası 42 faiz səviyyəsindədir. Əlbəttə, əlavə tapşırıqlar veriləcək ki, bu layihənin icrası sürətləndirilsin, Gəncə şəhərinin bu problemi də öz həllini tapsın.

Avtomobil yollarının çəkilişi ilə bağlı deyə bilərəm ki, indi bütün ölkədə olduğu kimi, Gəncəyə gedən yollar tam müasirləşdirilib. Həm Bakı-Gəncə avtomobil yolunun, həm də Gəncə-Qazax-Gürcüstan sərhədi yolunun çəkilişi başa çatıb. İndi biz bu yolu iki zolaqdan dörd zolağa genişləndiririk. Eyni zamanda, Gəncədən digər şəhərlərə - Göygöl, Daşkəsən şəhərlərinə gedən yollarda da əsaslı təmir işləri aparılmışdır.

Bildiyiniz kimi, Gəncəyə Bakıdan dəmir yolu xətti də tam modernləşdirilib. Bu, əslində, Şərq-Qərb nəqliyyat dəhlizinin bir parçasıdır. İndi xəttə sürətli qatarlar da buraxılıb. Dünyanın aparıcı İsveçrə şirkəti tərəfindən istehsal edilən bu qatarlar həm vaxt baxımından çox əlverişlidir, həm də ki, komfortludur. Hazırda Bakıdan Gəncəyə və Gəncədən Bakıya yüksəksürətli qatarlar işləyir. Bu, əlbəttə ki, insanların rahatlığı üçün də çox önəmli bir məsələdir. Həm avtomobil yolu ilə rahat gəlmək olur, həm də hava məkanı qonaqlar üçün, Azərbaycan vətəndaşları üçün indi tam müasir səviyyəyə uyğundur. Gəncə Beynəlxalq Hava Limanı uzun illər bundan əvvəl mənim təşəbbüsümlə yenidən qurulmuşdur.

Yəni, bunlar əsas infrastruktur layihələridir. Bunlar həll olunmadan şəhərin inkişafından söhbət gedə bilməzdi. Bununla paralel olaraq, əlbəttə ki, həm səhiyyə, həm təhsil sahəsində bütün sosial infrastruktur yenilənib. Baxın, indi Gəncədə 245 çarpayılıq şəhər xəstəxanası demək olar ki, yenidən tikilib və əlavə 200 çarpayılıq modul tipli xəstəxana quraşdırılıb. Təhsillə bağlı. Şəhərdə 30-dan çox məktəb tikilib və təmir edilib. Bu problemin böyük hissəsi öz həllini tapıb. Dövlət Aqrar Universitetinin iki yataqxanası istifadəyə verilib. Mən hər ikisinin açılışında iştirak etmişəm və tədris korpusu yenidən qurulub. Nəzərə alsaq ki, hazırda ölkə iqtisadiyyatı üçün kənd təsərrüfatı xüsusi önəm daşıyır, bu təhsil mərkəzinin müasirləşdirilməsi, əlbəttə, çox böyük əhəmiyyətə malik idi.

Eyni zamanda, Gəncənin mədəni həyatı çox zəngindir. Həm Dövlət Filarmoniyasının yeni binası tikilib, həm də Dram Teatrının. Yəni, Gəncənin hərtərəfli inkişafı ilə bağlı işlər görülür, o cümlədən parklar, xiyabanlar, istirahət və əyləncə zonaları yenidən qurulur. Görülən bütün bu işlər düzgün müəyyən edilmiş siyasətin nəticəsidir.

Bir də ki, İkinci Qarabağ müharibəsindən sonra Gəncə, eyni zamanda, Kəlbəcər rayonunun inkişafı ilə bağlı öz sözünü deyir və deməlidir. Çünki hazırda bizim Kəlbəcərə yeganə, yəni, rahat gedə biləcəyimiz yol Gəncədən Göygölə, Göygöldən Kəlbəcərədir. Rahat deyəndə, biz ancaq yaz-yay mövsümlərində o yoldan rahat istifadə edə bilərik. Çünki qış aylarında yol həm bəzi yerlərdə keçilməz, həm də çox təhlükəli olur. Bu yol faktiki olaraq sovet vaxtında olmayıb, bir cığır idi. Biz qısa müddət ərzində o cığırı genişləndirdik və mən özüm də keçən il o yolla Kəlbəcərə getmişdim, Murov aşırımından keçərək. Hazırda Murov dağının altından böyük - uzunluğu təqribən 12 kilometr olan tunel çəkilir. Yəni, Kəlbəcərin gələcək inkişafı, vətəndaşların oraya qayıtmaları və Kəlbəcər rayonunun, eyni zamanda, Laçın rayonunun təchizatı böyük dərəcədə bu bölgədən təşkil ediləcəkdir. Ona görə Gəncə və bu zona azad edilmiş torpaqların bərpası, vətəndaşların rahat yaşaması üçün xüsusi əhəmiyyət daşıyır. Hazırda bizim hərbi postlarımıza, bizim sərhəd boyunca yerləşən postlara da əsas təchizat buradan gedir. Ona görə Gəncə və Gəncənin ətrafında yerləşən ərazilərin bundan sonra da ölkəmizin həyatında, xüsusilə azad edilmiş torpaqların həyatında xüsusi rolu olacaqdır.

Əlbəttə ki, şəhərin əhalisi artır. Əhalinin bu artımına və müasir tələblərə uyğunlaşmaq üçün biz, əlbəttə ki, əlavə addımlar atırıq və atacağıq. Eyni zamanda, hazırda Daşkəsən rayonunda dağ-mədən sənayesinin uğurla inkişafı da böyük dərəcədə Gəncədəki infrastrukturla bağlı olacaq. Çünki orada həm qızıl yataqları, həm də dəmir filizi yataqları mövcuddur. Bu işlərin sürətləndirilməsi üçün əlavə göstərişlər verilib. Dəmir filizi yataqlarından səmərəli istifadə etmək üçün zəncirvari sənaye klasteri yaradılmalıdır. Əlbəttə ki, Gəncənin də burada xüsusi rolu olacaqdır. Bir sözlə, Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramlarının icrası nəticəsində Gəncə şəhəri həmişə xüsusi yerə malik olubdur. Bu gün də belədir, sabah da belə olacaq.

***- Cənab Prezident, bu gün də bir neçə mühüm obyektin açılışını etdiniz. Bu açılışlar nəyi göstərir? Bu açılışlar barədə nələri deyə bilərsiniz?***

- Əslində, bu açılışlar onu göstərir ki, Gəncənin inkişafı və şəhərin problemlərinin həlli daim diqqət mərkəzindədir. Həm də, onu göstərir ki, baxmayaraq, bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara - Qarabağa və Zəngəzurадır, eyni zamanda, bütün başqa şəhər və rayonlarımız daim diqqətlə əhatə olunur. Əgər mənim təkcə bugünkü proqramıma nəzər salsaq, görərik ki, bir çox önəmli obyektin açılışı oldu, təməlqoyma mərasimi oldu. Onların içində, əlbəttə ki, ”ASAN xidmət” Mərkəzinin açılışını xüsusilə qeyd etmək istəyirəm. Bir neçə il bundan əvvəl Gəncədə ”ASAN xidmət” Mərkəzi açılmışdır. Ancaq tələbat o qədər böyükdür ki, növbələr yarandı.

## Azərbaycan Prezidenti:

*“Ermənistanın paytaxtında Qaregin Njdeyə qoyulan abidə faşizmin təbliğatıdır"*

# "Biz müharibəni ləyaqətlə aparmışıq və düşmənə cavabı döyüş meydanında vermişik"

Əlbəttə ki, ”ASAN xidmət”in xüsusiyyətlərindən biri həm şəffaflıqdır, müasir xidmətlərin göstərilməsidir, həm də rahatlıqdır. Ona görə biz xidmətin adını ”ASAN” qoymuşuq. Əgər növbə yaranırsa və insanlar saatlarla növbədə dayanırsa, bu, artıq ”ASAN xidmət” olmadı. Ona görə mənim göstərişimlə ikinci ”ASAN xidmət” Mərkəzi yaradıldı, birincidən daha böyük. Bu xidmət artıq bu gün rəsmən açıldı və bir neçə gündən sonra öz qapılarını vətəndaşların üzünə açacaq. Beləliklə, növbələr artıq aradan götürüləcək.

Eyni zamanda, bu gün Gəncə Dram Teatrının açılışı oldu. Təəssüf edirəm ki, pandemiyaya görə teatrın truppası ilə görüşə bilmədim. Ancaq yadımdadır ki, mən bir neçə il bundan əvvəl Gəncədə olarkən teatrın truppasının nümayəndələri şəhərdə dram teatrının tikilməsi ilə bağlı mənə müraciət etmişdilər. Mən də onlara söz vermişdim ki, bu müraciəti nəzərə alacağam. Həm memarlıq, həm də funksionallıq baxımından çox gözəl, möhtəşəm Dram Teatrı açıldı. Yenə də deyirəm, ölkə qarşısında bir çox problemlər var və bu problemlər təxirəsalınmaz həllini gözləyir.

Amma buna baxmayaraq, mədəniyyətə, şəhərin, Gəncənin mədəni həyatına töhfə verə biləcək hər bir təşəbbüs dəstəklənməlidir. Neçə ki, bir neçə il bundan əvvəl Gəncə Filarmoniyası açıldı. Baxın, bu Filarmoniyanın açılması Gəncə şəhərinin mədəni həyatına nə qədər töhfə veribdir, eyni zamanda, şəhərin ümumi görünüşünə gözəl töhfə olubdur. Çünki memarlıq baxımından çox gözəl bir binadır. Dram Teatrı da çox möhtəşəm binadır və orada artistlər, truppa üzvləri və tamaşaçılar üçün gözəl şərait yaradılıb.

Bu gün, eyni zamanda, Gəncə İdman Sarayının tikintisi ilə tanış oldum. Bu sarayı da mənim təşəbbüsümlə inşa etməyə başlamışıq. Bu, çox böyük layihədir. Deyə bilərəm ki, Azərbaycanda bu boyda idman sarayı yoxdur, hətta Bakı şəhərində. Baxmayaraq ki, Bakı şəhərində bir çox idman sarayları var, - ancaq bütün əsas idman növlərinin bir yerdə cəmləşməsi Bakıda yoxdur. Burada isə həm döyüş idman növləri, güləş, boks, həm məktəblər - güləş məktəbi, boks məktəbi, həmçinin əl oyunları üçün xüsusi zal - basketbol, voleybol, həndbol, 50 metrlik üzgüçülük hovuzu, yardımçı otaqlar və zallar, otel. Yəni, bir daha demək istəyirəm ki, bu, ölkəmizin ən böyük idman sarayıdır. Bu sarayı Gəncədə inşa etmək gəncəlilərə edilən bir hədiyyədir. Onu da bildirməliyəm ki, hələ mən Prezident olmadığım dövrdə, Milli Olimpiya Komitəsinin prezidenti kimi Gəncədə Olimpiya Mərkəzinin yaradılması ilə bağlı təşəbbüslə çıxış etmişdim və o idman qurğusu o vaxt inşa olunub. Ancaq illər keçdikcə, əlbəttə ki, bu idman obyekti həm fiziki, həm mənəvi cəhətdən köhnəlib və orada normal məşq etmək üçün şərait o qədər də uyğun deyildi. Amma bu idman sarayı əminəm ki, gələn ilin sonuna qədər istifadəyə veriləcək, həm idmançılar, həm də şəhər sakinləri üçün çox faydalı olacaq. Çünki mən hesab edirəm və haqlıyam ki, hər bir insan idmanla məşğul olmalıdır. Yəni, bu obyektlərin açılması və təməlinin qoyulması, əlbəttə ki, şəhərə olan qayğının təzahürüdür.

Gəncədə lokomotiv deposunun yaradılması artıq başa çatıb. Buna da çox böyük ehtiyac var. Çünki qeyd etdiyim kimi, Gəncədən Şərq-Qərb nəqliyyat dəhlizi keçir. Bakıda bu yaxınlarda lokomotiv deposu açılmışdır, ikinci depo isə Gəncədə açıldı. Görün, bugünkü proqramın nə qədər böyük əhatə dairəsi var. Bütün bu açılışlar və təməlqoyma mərasimləri göstərir ki, ölkəmizin hər bir yerində inkişaf getməlidir, davam etməlidir, biz əldə olunmuş nailiyyətlərlə kifayətlənməməliyik, yalnız irəliyə getməliyik və bütün gücümüzü səfərbər edib insanlar üçün daha yaxşı həyat şəraiti yaratmalıyıq.

***- Cənab Prezident, bu gün Siz, eyni zamanda, Vətən müharibəsi ərzində erməni faşist ordusu tərəfindən dağıdılmış ərazidə Memorial Kompleksin təməlini qoydunuz. Bununla bağlı fikirlərinizi bilmək istərdik.***

- Bilirsiniz, bu dağılmış evlərin önündə olmaq, bax, bu dəhşətli mənzərəni seyr etmək hər bir azərbaycanlı üçün çox ağırdır. İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i partlayaraq əfsuslar olsun ki, insanların həyatına son qoyub, beş raket isə partlamayıb. Bu da öz növbəsində onu göstərir ki, Ermənistan ordusu nə vəziyyətdə idi. Ancaq bu namərd atəş nəticəsində həlak olan vətəndaşlarımız yaşamalı idi. Onların arasında uşaqlar, qadınlar, yaşlı insanlar da var idi, 6 uşaq həlak oldu. Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş namərd atəş nəticəsində həlak oldu, erməni faşizminin qurbanı oldu. Gəncə şəhəri həm ”Toçka-U”, həm ”SCUD” raketləri ilə atəşə tutulurdu. Biz bu məsələ ilə bağlı öz sözümüzü deyəndə Ermənistan tərəfi bunu inkar edirdi. Sonra da yalançı Ermənistan təbliğatı növbəti uydurma ortaya qoyaraq bəyan etmişdi ki, Azərbaycan özü öz şəhərlərini atəşə tutur. Görün nə dərəcədə alçaqlıq və vicdansızlıqdır. Necə ki, vaxtilə ermənilər deyirdilər, azərbaycanlılar özləri Xocalı soyqırımını törədiblər. Bu dəfə də ermənilər öz yalanlarının, necə deyərlər, qurbanlarına çevrilib. Çünki ballistik raketlərin trayektoriyası böyük dövlətlər tərəfindən izlənilir və hər kəs gördü ki, erməni ordusu gecə vaxtı dinc şəhəri, müharibə zonasından uzaqlarda yerləşən şəhərin məhz yaşayış məhəllələrini məqsədyönlü şəkildə atəşə tutub. Yəni, bu, təsadüfən açılan atəş deyildi, məqsədyönlü şəkildə yaşayış binasını vurmaq, Azərbaycan vətəndaşlarını öldürmək, Azərbaycan xalqının gözünü qorxutmaq, Azərbaycan rəhbərliyini torpaqların azad edilməsindən çəkindirmək məqsədi daşıyırdı. Əlbəttə, bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır. Azərbaycan Ordusu müharibə dövründə belə cinayətlərə əl atmayıb, biz müharibəni ləyaqətlə aparmışıq, biz döyüş meydanında düşmənə cavab vermişik. Gəncə və digər şəhərlər - Mingəçevir, Bərdə, Tərtər, Goranboy, Ağdam rayonu, Füzuli rayonu, Naftalan bombalananda mən deyirdim ki, biz döyüş meydanında qisasımızı alacağıq. Biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir.

Ermənistan isə döyüş meydanında məğlub olaraq, 10 min fərari verərək, tamamilə biabır olaraq, görün, hansı çirkin əməllərə əl atıb bizi dayandırmaq istəyirdi. Amma Azərbaycan xalqı, hətta bu dağıntılar altından çıxan insanlar, qanın içində olan insanlar, öz yaxınlarını itirmiş insanlar da deyirdilər ki, biz ancaq qabağa getməliyik. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Biz bu günahsız insanların, şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Ermənistanı diz çökdürdük, məğlub etdik. Erməni faşizmini məğlub etdik və ədaləti bərpa etdik.

Bu gün, burada təməlini qoyduğum Memorial Kompleks böyük ərazini əhatə edəcək. Bu Memorial Kompleks təqribən dörd hektarda yaradılacaq. Dağıdılmış bu binalar olduğu kimi qalacaq. Yəni, bu yaddaş silinməməlidir. Bu erməni vəhşiliyini unutmamalıyıq. Müharibə başa çatıb. Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı. Onların yaxınları üçün bəlkə də bu, təsəlli ola bilər. Eyni zamanda, deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizmini məğlub etdik. Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın.

***- Cənab Prezident, bildiyimiz kimi, bu günlərdə Rusiyada erməni faşist Qaregin Njde haqqında filmin yayımı dayandırıldı, aradan qaldırıldı. Bu məsələni Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasətin nəticəsi kimi dəyərləndirmək olarmı? Bu barədə də fikirlərinizi bilmək istərdik?***

- Mən hesab edirəm ki, ilk növbədə, Rusiya ictimaiyyəti bundan xəbərdar oldu və Rusiya ictimaiyyətinin təkidi nəticəsində bu biabırçı aksiya baş tutmadı. Ancaq o da həqiqətdir ki, ilk dəfə olaraq, bu məsələni siyasi müstəviyə gətirən mən olmuşam. Mən əvvəlki illərdə də dəfələrlə bu erməni faşistləri haqqında öz çıxışlarımda məsələ qaldırmışdım. Beynəlxalq təşkilatlar qarşısında, ölkələr qarşısında məsələ qaldırmışdım ki, faşistlərin qəhrəmanlaşdırılmasına imkan vermək olmaz. Cəllad Njde ilə bağlı mən MDB Zirvə görüşünün birində öz çıxışımda məsələni qaldırdım. Dedim ki, Njdeyə Ermənistanın paytaxtında - İrəvanda qoyulan abidə faşizmin təbliğatıdır. Buna son qoyulmalıdır. Bu adam faşist olub. Bu adam cəllad olub. Bu adam günahsız azərbaycanlıların və ondan sonra İkinci Dünya müharibəsi zamanı sovet ordusunun əsgərlərini, zabitlərini qətlə yetirib. Bu Njde faşistdir və bunu hər kəs bilməlidir. Ancaq Ermənistanda onun qəhrəmanlaşdırılması gedir. Əgər bu, təkcə əvvəlki faşist hakimiyyətlə bağlı olsaydı, dərd yarı idi. Ancaq əfsuslar olsun ki, indiki Ermənistan hakimiyyəti faşistləri təbliğ edir, onları müdafiə edir. Moskvada ermənilərin diaspor təşkilatının xətti ilə bu dözülməz aksiyanın keçirilməsi heç bir çərçivəyə sığmır. Çünki Rusiya özü faşizmin qəhrəmanlaşdırılmasına qarşı gedən mübarizədə ön sıralardadır, Azərbaycan kimi. Bu məsələ ilə bağlı Rusiya tərəfi ilə dəfələrlə fikir mübadiləsi olub. Prezidentlər səviyyəsində, digər vəzifəli şəxslər səviyyəsində, ictimai təşkilatlar səviyyəsində biz həmfikirik. Faşizmin baş qaldırmasına yol vermək olmaz. İkinci Dünya müharibəsinin tarixi ilə bağlı təhrifetmə cəhdlərinə son qoyulmalıdır. Bu siyasət dünyanı uçuruma aparacaq. Faşizmi qəhrəmanlaşdırmaq olmaz. Amma bir tərəfdən Ermənistan rəsmən bu fikirlərə qoşulsa da, faktiki olaraq Njde kimi faşistin qəhrəmanlaşdırılması ilə bağlı konkret addımlar atır. Bu günə qədər Ermənistanda, İrəvanda faşist Njdenin adını daşıyan küçələr, meydanlar, metro stansiyası var, ona böyük - altımetrlik abidə qoyulub. Bu abidə bu günə qədər sökülməyib.

Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, erməni faşizmi yaşayır. Bəli, İkinci Qarabağ müharibəsində, Vətən müharibəsində biz erməni faşizmini məğlub etmişik. Deyə bilərəm ki, erməni faşistlər indi əvvəlki illərdəki qədər fəal deyillər. Ancaq biz görürük ki, faşizm baş qaldırır, Ermənistanda baş qaldırır. Ermənistanın keçmiş faşist rəhbərləri, uşaq qatilləri Sarkisyan, Köçəryan baş qaldırırlar və yenə də meydan sulamağa çalışırlar. Biz onları məğlub etmişik. Onlar bizim qabağımızda diz çöküblər. Onlar tarixdə fərari kimi qalacaqlar. O cümlədən erməni xalqının tarixində Serjik Sarkisyan və Robert Köçəryan fərarilər kimi qalacaqlar. Çünki Azərbaycan Ordusu Şuşaya yaxınlaşdıqca onlar Xankəndidən qorxaqcasına, dovşan kimi qaçmışdılar. Amma indi Ermənistanda baş qaldırırlar, Rusiyada baş qaldırırlar. Rusiyanın paytaxtında erməni diaspor təşkilatının xətti ilə belə biabırçı aksiyanın təşkili dediyim sözlərin sübutudur. Biz erməni faşizmini məğlub etdik, ancaq o, məhv edilməyib. Biz bundan sonra da çalışacağıq ki, erməni faşizminin bütün təzahürlərini yer üzündən silək və buna gücümüz çatır. Ancaq gərək digər ölkələr də, beynəlxalq ictimaiyyət də bu məsələdə həmrəy olsun. Erməni faşizminin XXI əsrdə törətdiyi bu dağıntılar hamı üçün gərək bir nümunə olsun ki, faşizmin yaxşısı, pisi yoxdur. Erməni havadarları, Ermənistanın arxasında dayanan dairələr də bunu bilməlidirlər, dərk etməlidirlər və bizim tarixi missiyamızı qiymətləndirməlidirlər, biz hansı bəlanı məhv etdik. Biz təkcə öz torpağımızı azad etmədik, biz regionu, Cənubi Qafqazı bu vəhşixislətli qüvvələrdən təmizlədik. Yenə də deyirəm, indi onlar artıq boynubükük şəkildə yaşayırlar. Ancaq heç kim qarantiya verə bilməz ki, yenə də baş qaldırmayacaqlar. Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir.

***- Cənab Prezident, AZƏRTAC-ın suallarını ətraflı cavablandırdığınız üçün Sizə təşəkkür edirik, minnətdarıq.***

- Sağ olun.

## Ceyhun Bayramov ilə Mövlud Çavuşoğlu arasında telefon danışığı olub

Yanvarın 31-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı nazirlər ikitərəfli əməkdaşlıq münasibətlərini müzakirə ediblər. Eyni zamanda, regiondakı cari vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.



# NATO-dan erməni separatizminə SİLLƏ



**Cənubi Qafqazda "erməni faktoru" artıq qlobal miqyasda hədəfdə olduğu görünür, çünki NATO baş katibinin Rusiyadan tələbi Qərbin separatizmi dəstəkləmədiyi anlamına gəlir. Məhz bu tələb dövlətlərin ərazi bütövlüyünün dəstəklənildiyini açıq-aşkar ortaya qoyur. Azərbaycanın tələb etdiyi təqdirdə Rusiya sülhməralı qüvvələrinin ərazidən dərhal çıxarılması, əks təqdirdə onların sülhməramlı deyil, Azərbaycanın icazəsi olmadan yerləşdirilmiş hərbi kontingent statusu qazanmış olacağı bəyan edilirsə, deməli, sülhməramlılara güvənən ermənilərin ərköyünlüklərinin sonu çatıb.**

Qərbin, xüsusən də Amerika Birləşmiş Ştatlarının Rusiya ilə münasibətlərinin pozulduğu, Rusiyaya qarşı sanksiyalarını artırmaq niyyəti, hətta Rusiyanın rəsmi şəkildə bunu təqib və təzyiq adlandırdığı münasibətlər dünyanın gündəmini zəbt edib. Sirr deyil ki, Ukrayna ilə münasibətlər fonunda Rusiyaya qarşı Qərbin tələbləri günü-gündən artmaqdadır və bu qarşıdurmada bir sıra ərazi mübahisələri də aktuallaşdırılıb, hansıki bu, Rusiya üçün arzuolunan deyil. Daha doğrusu, Rusiyanın əl qolunun bağlanması kimi görünür, ona görə ki, artıq münaqişə ocaqlarında sülhməramlı adı altında hərbi kontingentin yerləşdirilməsinə məhdudiyyətlərin tətbiqi nəzərdə tutulur. Bu baxımdan, ermənilər heç də ümid edə bilməzlər ki, sülhməramlılar əbədi olaraq onlara ərköyünlükləri üçün imkan yaradacaqlar və onların da separatçılığına göz yumulacaq, əksinə, separatçılıq arzularının belə puç olduğunu ermənilər anlamaq məcburiyyətindədirlər.

Krım yarmadasının Rusiya tərəfindən ilhaq edilməsi bəyan edilirsə, deməli bu, beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması kimi dəyərləndirilir. Bu isə ondan xəbər verir ki, Qərb artıq Rusiyanın davranışlarına göz yummaq, dözmək niyyətində deyil və Rusiyanın postsovet ölkələrində sülhmərmlı adı altında hərbi kontingentini yerləşdirməsinə qarşıdır, buna imkan da verməyəcək. Nəzərə alsaq ki, separatçıların nəzarətində olan Donbas üçün Rusiya status tələb edirdi, deməli, ermənilərin də status barədə arzularının baş qaldırdığının nədən qaynaqlandığı da bəlli olur. Məsələ burasındadır ki, ermənilər elə hesab edirdilər ki, bu məqamdan istifadə edərək, Qarabağda da status məsələsini gündəmə gətirə bilərlər, amma hadisələr göstərir ki, artıq arzuları elə yerindəcə boğulur, bunu istəsələr də istəməsələr də. Xatırladaq ki, Rusiyanın artıq fəaliyyətsiz bir qurum olan Minsk Qrupunu, həmsədrlərin fəaliyyətini bərpa etmək niyyətləri də erməni arzularının baş qaldırmasına zəmin yaradırdısa, indi bunun da zərrə qədər mənası olmadığı bəlli olur.

Bir sözlə, Rusiyanın separatizmi dəstəkləmə cəhdlərinə Qərbin sərt reaksiyası ermənilər üçün bir ciddi mesaj sayılır. Bu fakt ondan xəbər verir ki, ermənilərin "bəlkə də qaytardılar" xəyalları, arzuları belə puça çıxır və separatçılar dərk etmək məcburiyyətində qalırlar ki, dəstəyə ümid bağlamaları artıq boş xülyadan başqa bir şey deyil. Separatçılıq meyllərinin müasir dünya üçün qəbuledilməz olduğu günün reallığına çevrilib və indi bütün dünya erməni yalanlarını, ərköyünlüklərini, sərsəm iddialarını dəstəkləmək məcburiyyətində deyil. Bunu da ermənilər nə qədər tez dərk etsələr, bir o qədər faydalana bilərlər.

NATO-nun baş katibi Yens Stoltenberqin separatçılığın geniş yer aldığı MDB məkanı üçün olduqca böyük əhəmiyyət daşıyan açıqlaması olduqca əhəmiyyətli məqamdır, çünki burada separatçılıq birbaşa hədəfə alınır. İndi Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycanın Xankəndi və ətraf bölgəsindəki erməni separatçıları öz hesablarını götürməlidirlər. Məhz separatçılar, erməni separatçıları dərk etməlidirlər ki, artıq ağıllarına gələn şəkil hərəkət etmək, separatçılığa rəvac vermək kimi bir imkanları sıfıra yaxınlaşır. Əslində, separatçılığa meyilli olan ermənilərin narahat olmaları məntiqidir, çünki onların bu fəaliyyətləri artıq ciddi nəzarət mexanizmi ilə qarşılaşır.

Doğrudur, birbaşa olaraq NATO-nun baş katibi Yens Stoltenberqin Rusiya qoşunlarının postsovet ölkələrində dislokasiyası ilə bağlı irəli sürdüyü tələb Ukrayna, Gürcüstan və Moldova üçün nəzərdə tutulub. Çünki, NATO-nun baş katibi ölkələrin icazəsi olmadan Rusiyanın yerləşdirdiyi hərbi qüvvələrini çıxarmalı olduğunu vurğulayıb. Yəni, Rusiyanın məhz Ukrayna, Gürcüstan və Moldovada separatçılığı dəstəklədiyinə qarşı çıxış edilib. Amma məsələ burasındadır ki, nəticə etibarı ilə NATO-nun baş katibinin tələbi separatçılığa dəstək verənlərin durdurulması tələbidir.

Onu da diqqətə çatdıraq ki, Rusiya sülhməramlıları sadalanan ölkələrdən, Ukraynadan, Gürcüstandan və Moldovadan fərqli olaraq Azərbaycanda üçtərəfli anlaşma çərçivəsində, ən başlıcası isə Azərbaycanın razılığı ilə yerləşdirilib. Daha doğrusu, Yens Stoltenberqin tələbi indiki halda Azərbaycanın Xankəndi və ətraf bölgəsində müvəqqəti yerləşdirilmiş rus sülhməramlıları üçün hələlik aktual deyil. Amma, qeyd etdiyimiz kimi, hələlik aktual deyil. Rus sülhməramlıların bölgədə dislokasiya müddəti sona çatdıqdan sonra rəsmi Bakının onu uzatmaqdan imtina etməsi halında müddətin Rusiya tərəfindən uzadılması, sülhməramlıların həmin ərazilərdə saxlanılması NATO baş katibinin tələblərinə zidd hesab oluna bilər. Yəni, sülhməramlıların müddəti bitdikdən sonra rəsmi Bakının istəyinə uyğun şəkildə onların çıxarılması Rusiya tərəfindən həyata keçirilməzsə, Stoltenberqin tələbi Azərbaycan üçün də aktual xarakter daşıyacaq. Bir sözlə, NATO baş katibinin mövcud tələbi zamanı gəldiyi vaxt presedent sayıla bilər və bu tələb Azərbaycan üçün olduqca əhəmiyyətlidir.

Ermənilər artıq başa düşməlidirlər və əksəriyyəti də başa düşürlər ki, NATO baş katibinin bu tələbi Ermənistanın, eləcə də, Xankəndi və ətraf bölgədəki erməni separatçılarının qol-qənədini qırdı. Son vaxtlar Kremlin Donbas üçün status tələb etməsindən, eləcə də, Minsk Qrupu həmsədrlərinin fəaliyyətinin bərpasına yönəlik cəhdlərindən cuşa gələn, bir növ ruhlanan rəsmi İrəvan üçün NATO baş katibinin tələbi bir sillə oldu. Status mövzusunu aktuallaşdıracağına ümid bəsləyən Xankəndi və ətraf bölgədəki erməni separatçıları NATO-dan ciddi zərbə aldılar və Stoltenberqin açıqlaması qapaz kimi separatçıların başlarına endi.

Bəli, məhz Azərbaycanın perspektiv maraqları baxımından NATO baş katibinin tələbi olduqca əhəmiyyətlidir. NATO-nun baş katibinin sözügedən tələbi Cənubi Qafqazda "erməni faktoru" üçün gözlənilməz olduğu qədər də ağır oldu. Çünki, kimliyindən asılı olmayaraq erməni separatizminin dəstəklənməyəcəyi, yaxud dəstəklənməsinə imkan verilməyəcəyi gün kimi aydındır və bu fakt ermənilərin yuxusunu ərşə çəkməyə bioiməz. İndi ermənilər dərk etməlidirlər ki, separatçılıqdan əl çəkməkdən və mövcud reallıqlarla barışmaqdan başqa yolları qalmayıb.

***İnam Hacıyev***

# İcbari tibbi sığortadan vətəndaşlar necə yararlana bilər?




"Azərbaycanda icbari tibbi sığorta artıq 2020-ci ilin aprel ayından bütün ölkə üzrə tətbiq olunmaqdadır. Bu da öz müsbət nəticəsini verir. İcbari tibbi sığorta ilk vaxtlar pilot bölgələrdə yəni Yevlaxda və Mingəçevirdə tətbiq olundu". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədli deyib.

Onun sözlərinə görə, bu, həmin bölgələrdə uğur qazandıqdan sonra bütün ölkə üzrə mərhələ-mərhələ tətbiq olunmağa başladı: "İcbari tibbi sığortanın əsas prinsipi ondan ibarətdir ki, insanların böyük bir qisminin dövlət tərəfindən sığorta haqları ödənilir. 18 yaşına qədər olan uşaqlar, 23 yaşına qədər olan tələbələr, hamilə qadınlar, pensiya yaşına çatmış, əlilliyi olan şəxslərin icbari tibbi sığortası dövlət tərəfindən ödənilir. Digər əmək fəaliyyəti ilə məşğul olan əhali isə öz maaşından müəyyən ayrılmalar hesabına icbari tibbi sığortanın fonduna vəsait köçürür. Bu da sağlam bir insanın müəyyən vəsait köçürərək həmrəylik prinsipləri hesabına digər xəstə insanların sağlamlığının qorunmasında yardımçı olur. Bundan əlavə dövlətin verdiyi dəstək hesabına da digər əhali qrupları bu istiqamətdə artıq sağlamlıqlarını sığorta altına almış olurlar. Burada konkret olaraq şəxsiyyət vəsiqəsini təqdim edən şəxs tibb müəssisəsinə müraciət etdikdə artıq sığorta çərçivələri altında olur. İlk vaxtlar prosesin oturması sistemin qurulmasında təbii ki, müəyyən çətinliklər, problemlər olur. Amma biz bunları mərhələ-mərhələ tətbiq etməklə müsbət nəticə əldə edəcəyik".

Müşfiq Məmmədli sözlərinə davam edərək həmçinin qeyd edib ki, icbari tibbi sığortanın fəlsəfəsi həmrəylik prinsipi, dövlətin həm birbaşa, həm dolayı yolla dəstək olmasında ibarətdir: "Yəni xəstəxanaların saxlanma xərci hesabına, xəstəxanalarda müəyyən infrastrukturun ilk öncələr qurulması hesabına, cənab Prezidentin bu istiqamətdə fəaliyyəti nəticəsində həm bölgələrimizdə, həm mərkəzdə olan xəstəxanalar yenidən quruldu, yeni xəstəxanalar tikildi. Bu da dövlət tərəfindən dolaylı dəstək sayıla bilər. Çünki infrastrukturun qurulması da özü çox böyük vəsaitlər tələb edir və bu infrastruktur olmadan da səhiyyə sisteminin inkişafı da mümkün deyil. Bundan başqa Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə xaricdə oxumuş Azərbaycan vətəndaşı olan tibb mütəxəssislərinin dövlət sektorunda işə cəlb olunması, onların müxtəlif ölkələrdə dövlət hesabına fəaliyyət göstərməsi insan sağlamlığına dövlət tərəfindən verilmiş böyük bir dəstəyin nümunəsidir. İkinci bir məsələ ondan ibarətdir ki, sağlam insan xəstə insanın müalicəsinin maliyyələşdirilməsinin müəyyən hissəsində fəaliyyət göstərir. Həmin insan xəstələndikdə isə həmrəylik prinsipinə uyğun olaraq digər insanların ayırdığı sığorta vəsaitləri və dövlətin ayırdığı vəsaitlər hesabına müalicəsi, müayinəsi təşkil olunur. Bu sistemin tədricən tətbiqi ilə biz daha böyük uğurlara şahid olacağıq. Artıq bilirik ki, icbari tibbi sığorta tətbiq olunduqdan sonra səhiyyə büdcəsi 2 milyarda yaxın bir vəsaitlə təmin olunacaq".

***Arzu Qurbanzadə***

# "Paşinyanın özü prezident olmaq arzusundadır"



"Nikol Paşinyanın hakimiyyəti dövründə ilk dəfədir ki, belə vəziyyət yaranır. Həm prezident, həm baş nazir hakimiyyəti tədricən də məhkəmə hakimiyyəti tamamilə Nikol Paşinyanın əlinə keçib". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseyn deyib.

Onun sözlərinə görə, parlamentdə yerlərin əksəriyyəti Nikol Paşinyanın partiyasının üzvlərinə mənsubdur: "İndi heç şübhəsiz prezident postuna öz yaxını olan adamı irəli sürəcək. Yüksək texnologiyalar naziri Vahaqn Xaçatryanı prezident vəzifəsinə irəli sürəcək namizəddir. Paşinyanın verdiyi namizədi parlament əngəl yaratmadan qəbul edəcəkdir. Parlamentdə 60 faizə yaxın Nikol Paşinyanın partiyasından olan deputatlardan ibarətdir. Ermənistanda referendum gözləniləndir. Ola bilsin ki, referendumda ölkənin siyasi sistemi də gündəmə gətirilsin. Yəni, parlamentar sistemdən yenidən prezident üsul-idarəsinə keçirilsin. Paşinyanın özü prezident olmaq arzusundadır".

***Qönçə Quliyeva***

# Azərbaycan gəncləri bayramı qalib ölkənin vətəndaşları kimi qürurla qeyd edirlər

Artıq ikinci ildir ki, biz gənclər öz bayramımızı qalib ölkənin vətəndaşları kimi qürurla qeyd edirik. Və qürur duyuruq ki, 30 illik həsrətə Ali Baş Komandanımız, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə Güclü Ordumuzun igid əsgər və zabitlərinin gücü ilə 44 gün ərzində son qoyuldu. Və dünyaya sübut etdi ki, Azərbaycan gəncləri hər şeyə qadirdilər. Çünki Azərbaycan gəncləri yüksək intellektual bacarıqlara



**FUAD HEYDƏR,**
**YAP Səbail rayon təşkilatının əməkdaşı**

malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərir, dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə uğurla çalışır, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Bir gənc olaraq qürurla deməkolar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır.

2 fevralın Gənclər Günü kimi elan olunması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyuldu. 1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyi yaradıldı. 1996-cı il 2 fevral tarixində məhz Ulu Öndər Heydər Əliyev dəstəyi ilə gənclərin 1-ci forumu keçirildi. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Bu bir daha Ulu öndərimizin Azərbaycan gəncliyinə olan böyük etimadının və diqqətinin nümunəsidir. Bugünkü Azərbaycan gəncliyi ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirir, Onun bizə bəxş etdiyi Azərbaycanın müstəqilliyini, elmin, təhsilin inkişafını, ölkəmizin siyasi, iqtisadi yüksəlişini, gənclər olan diqqəti və qayğı dərin ehtiram hissi ilə xatırlayır. Çünki hər bir ölkənin gələcəyi onun gəncliyindən asılıdır və bütün dövrlərdə gəncliyin mənəvi və fiziki sağlamlığı cəmiyyət üçün önəmli olub. Əgər cəmiyyətdə proqres varsa, deməli, o cəmiyyətdə gənclər də proqressiv, intellektual, mənəvi və fiziki anlamda sağlam olacaqlar. Gənclik gələcəyin özü, böyük güc, böyük arzular, böyük ümidlər və sağlam düşüncə deməkdir. Hər bir gənc bütün bunların dəyərini bilməli, ailəsi, vətəni və cəmiyyəti üçün önəmli şəxsiyyət olmağa çalışmalıdır.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən eyni həssaslıq və diqqətlə davam etdirilir, Azərbaycan gənclərinə hər zaman dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir, ölkəmizdə gənclərin yüksəkixtisaslı təhsil alması, özünüinkişafı və potensiallarını reallaşdırmaları üçün hər cür şərait yaradılır. Gənclərlə bağlı dövlət proqramları və konsepsiyaların, o cümlədən "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı və "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın uğurlu icrası, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun və çoxsaylı gənclər təşkilatlarının təqdirəlayiq fəaliyyəti nəticəsində Azərbaycanda müstəqillik illərində yüksək vətənpərvərliyi, dövlətimizə, milli-mənəvi dəyərlərimizə, tarixi köklərimizə bağlılığı ilə seçilən müasir və nümunəvi gənclər formalaşmışdır. Biz ona görə xoşbəxtik ki, bu yolun təməlini ulu öndərimiz Heydər Əliyev qoyub. Bu gün Azərbaycan gəncliyi xoşbəxtdir ki, Azərbaycanın lideri, Prezidenti gənclərimizə daha güclü, daha zəngin bir Azərbaycan bəxş edib.

Vətən müharibəsində müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında zəngin, güclü Azərbaycanımızın bir qarışını da belə düşmənə verməmək üçün gənclər öz şücaətləri, milli ruhları, qəhrəmanlığı və fədakarlığı ilə Azərbaycanın yeni, şanlı tarixini yazdılar. Və bu gün Azərbaycan gənci olaraq igid, yenilməz, qalib Azərbaycan Ordumuzla fəxr edir, qürur duyuram. Çünki bu gün Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətə malikdir. Çünki bu gün Azərbaycan regionda və dünyada sayılır və dövlətimizlə hesablaşırlar, diktə edən Qalib Liderimizdir! Və bu gün Azərbaycan gəncləri belə qüdrətli, zəngin, dünyada söz sahibliyinə malik, ən əsası qalib ölkənin vətəndaşları olmaları ilə fəxr etməlidirlər. Bu nailiyyətləri bizə qazandıran ulu öndər Heydər Əliyevin düşünülmüş siyasəti və son 18 ildən artıq dövrdə bu xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir.

Onu da vurğulamaq istərdim ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2022-ci ilin "Şuşa İli" elan olunması ilində həm də ölkəmizin, Cənubi Qafqazın aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının 30 illiyinin qeyd ediləcək. Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev qeyd edir ki, Yeni Azərbaycan Partiyasına üzv olmaq böyük məsuliyyətdir. Biz Yeni Azərbaycan Partiyasının üzvləri olan gənclərimiz bu məsuliyyəti dərk etməlidir və bu gün elliliklə dərk edir və qələbələr partiyası olaraq xalqın, o cümlədən gənclərin böyük inamı ilə respublikamızın ərazi bütövlüyünün bərpasında, xalqımızın mənafeyinin qorunmasında, hüquqi dövlət və azərbaycançılıq ideyasını tərənnüm edən milli birliyin yaranmasında nə qədər böyük rol oynadığını bir daha göstərir. Və 44 günlük İkinci Vətən Müharibəsi başlayarkən Ali Baş Komandan, Prezident İlham Əliyev "İrəli" çağırışı ilə gənclərimiz ayağa qalxdı.

Dövlət başçımız çıxışlarının birində belə bir fikir söyləmişdi: "Biz öz doğma torpaqlarımızı heç kimə verməyəcəyik və heç bir zaman bu vəziyyətlə barışmayacağıq". 44 gün davam edən Vətən Müharibəsinin Qələbə Zəfəri əldə etməklə bir daha dünyaya Azərbaycanın güclü Lideri olduğunu sübut etməklə, həmçinin güclü ordusunun, qəhrəman gəncləri olduğunu və öz doğma torpaqlarımızın bir qarışını da belə düşmən tapdağından azad etməyə qadir, qeyrətli oğulları olduğunu sübut etdi. Və biz gənclər hər zaman Cənab Prezidentin bizə göstərdiyi etimadı doğrultmalı və yeni ideyalarla Azərbaycanın daha da inkişafı üçün birlik nümayiş etdirməliyik. Bu gün Azərbaycan gəncliyi Ali Baş Komandanımızın çağırışına hazırdır və bu yoldan bizi heç kim, heç bir qüvvə döndərə bilməz. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!

# "Azərbaycan gəncliyi Vətənə bağlılığını 44 günlük müharibədə də təsdiq etdi"

"Gənclik yeni nəfəs, yeni ruh, yeni düşüncə və yeni baxış deməkdir. Müasir dövrün gəncliyi Azərbaycanın sabaha olan inamı, əldə edəcəyimiz yeni-yeni uğurlara vəsilə olacaq stimuldur. Gənclik həm də sağlam düşüncədir, yenilikləri qavrayan, yeni bir qüvvə ilə sabaha, gələcəyə doğru addımlayan böyük qüvvədir. Gəncləri belə mütəşəkkil edən isə ona dövlətimiz, xüsusən də Cənab Prezident İlham Əliyev və gənclərə daim diqqət göstərən, daim onların yanında olan I vitse-prezident Mehriban xanım Əliyevadır. Dövlətin gənclər siyasəti milli dəyərlərə əsaslanır, həm də beynəlxalq təcrübəyə söykənir. Bunu nəzərə alan Azərbaycan dövləti gənclər siyasətini həyata keçirərkən bir sıra mühüm nəticələr əldə edib. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasəti uğurlu inkişafımızın tərkib hissəsidir. Azərbaycan gəncliyi əksər tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır, ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir. Bu da təbii ki, dövlətimizin yaratdığı imkanlar sayəsində mümkün olub". Bunu KİV-ə verdiyi açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.




A.Hüseynov bildirib ki, həyatın bütün sahələrində gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb: "Bu gün Azərbaycan gəncliyinin səsi beynəlxalq tribunalardan eşidilir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə uğurla davam etdirilən dövlət-gənclər siyasəti, məhz Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinin məntiqi davamıdır. 1996-cı il fevralın 2-də keçirilən I Forumda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında bir vəzifə qoyaraq deyirdi ki, hər bir Azərbaycan gənci hər şeydən çox müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".

Deputat əlavə edib ki, 1993-cü ildə ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə cəmiyyətin müxtəlif sahələrini əhatə edən islahatlar kimi, gənc nəslə diqqət və qayğı da dövlət siyasətinin prioritet sahələrindən birinə çevrilib: "Hər bir dövlətin gənc nəslə verdiyi dəyər gənclərin inkişafında mühüm, həm də tarixi mərhələni təmsil edir ki, məhz bu amil də dövlətin bütün gənclərin tam inkişafına sadiqliyinin ifadəsidir. Bu baxımdan da Ulu Öndər Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, bu tarix Azərbaycan Gəncləri Günü elan edildi. Bu siyasət vasitəsilə ölkəmizdə gənclərin inkişafı ilə bağlı bütün maraqlı tərəflərin ümumi məqsədlərə xidmət edəcəyi, firavan Azərbaycan uğrunda fəaliyyət göstərə biləcəyi bir mühit yaradıldı. Bir sözlə, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin tarixi inkişafında müstəsna əhəmiyyətə malikdir. Ulu öndər Heydər Əliyevin "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir" fikri Azərbaycanda həyata keçirilən gənclər siyasətinin fəlsəfi və ideoloji əsasıdır ki, məhz bu da gənclərin həm bu günün reallıqları, həm də gələcəyin çağırışları ətrafında səfərbər edir. Mövcud fəlsəfənin daha da sağlamlaşdırılması, uğurla realizə edilməsi bütün sahələrdə olduğu kimi gənclər siyasəti sahəsində də Ulu Öndərimizin siyasətini layiqincə icra edən Prezident İlham Əliyevin də illər ərzində əsas fəaliyyət istiqamətlərindən biri olub. Azərbaycan Prezidenti İlham Əliyev gənclərə xitab edərək deyir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Məhz bu səbəbdən dövlətimizin başçısı tərəfindən gənclərin rifahına xidmət edən 2005-2009-cu illər ərzində "Azərbaycan gəncliyi Dövlət Proqramı", 2006-2010-cu illər ərzində "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı kimi mühüm proqramlar təsdiq edilib. Son illərdə Prezident İlham Əliyevin bir fikri Azərbaycanda həyata keçirilən gənclər siyasətinin forma və mahiyyəti haqqında dolğun təsəvvür yaratdı. Belə ki, 2020-ci ildə Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında çıxış edərkən dövlətimizin başçısı bildirdi ki, Azərbaycanda gənclər küçələrə çıxsa və daha çox eşidilməyi tələb etsələr, onları dinləyər. Fakt budur ki, Azərbaycan gəncləri problemlərini küçələrdə, qanunsuz fəaliyyət növləri ilə həll etmir, universitetlərdə, müxtəlif təhsil ocaqlarında və digər innovativ sahələrdə dialoq, sağlam ünsiyyət yolu ilə həll edir. Prezidentimiz İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğı Onun gələcəyə hesablanmış uğurlu siyasətinin təcəssümüdür. Azərbaycan gəncliyi Vətənə bağlılığını 44 günlük müharibədə də təsdiq etdi. Ali Baş Komandanın bircə çağırışı ilə on minlərlə gənc səfərbər oldu. Rəşadətli Azərbaycan Ordusunun sıralarında mətanətlə döyüşən qəhrəman gənclərimiz öz adlarını tarixə qızıl hərflərlə yazdılar. Onların rəşadəti sayəsində əldə olunan bu Şanlı Qələbə Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, xalqımızın 30 illik torpaq həsrətinə son qoydu. Son 18 ildə yetişən milli ruhlu gənclər torpaqlarımızı işğaldan azad etdilər".

# Atalıq məzuniyyəti ölkəmizdə tətbiq ediləcəkmi

***Son günlər atalıq məzuniyyəti ilə bağlı müzakirələr gündəmdən düşmür. Analar kimi atalara da məzuniyyətin verilməsi gözlənilir. Övlad üçün hər iki valideynin qayğısı, nəvazişi önəmlidir. Həmçinin yeni doğulmuş körpənin həm anaya, həm də ataya ehtiyacı var. Atalıq məzuniyyəti bəzi ölkələrdə tətbiq edilsə də, Azərbaycanda bu məsələ hələ də öz həllini tapmayıb. Hətta bəzi ölkələrdə atalıq məzuniyyəti məcburidir. Bəs görəsən şəhər sakinləri atalıq məzuniyyəti ilə bağlı nə fikirləşirlər. SİA olaraq paytaxt sakinləri arasında sorğu keçirdik:***

**Şəhər sakini Vaqif Ənvəroğlu:** "Düşünürəm ki, ölkədə bu qərar tətbiq edilsə



yaxşıdı. Çünki kişilərin də istirahətə ehtiyacı var. Digər tərəfdən də, körpə uşağı saxlamaq asan iş deyil. Gərək həyat yoldaşına kömək etsin. Həm də körpə uşağa diqqət göstərmək lazımdır".

**Şəhər sakini Xıdır Zöhraboğlu:** "Məncə, atalıq məzuniyyəti bizim ölkədə də tədbiq edilməlidir. Bir çox ölkələrdə bu var, amma Azərbaycanda hələ də yoxdur. Düşünürəm ki, atalar övladları ilə çox vaxt keçirməlidirlər və körpə uşaqlar daha çox qulluq tələb edirlər. Yəni mənim münasibə-



tim müsbətdir. Tədbiq edilsə, əla olar".

**Şəhər sakini Ayxan Rəsulov:** "Mənə elə gəlir ki, uşaqlar analarla ilə çox vaxt keçirirlər. Bu, normal haldır. Ancaq ataları ilə nisbətən az vaxt keçirirlər. Uşaqlar ataları ilə vaxt keçirməlidirlər.



Ona görə düşünürəm ki, atalıq məzuniyyəti verilməlidir. Bu qayda tətbiq edilsə, yaxşı olar".

**Şəhər sakini Təhminə Qasımova:** "Məncə, verilməməlidir. Kişi pul qazanıb ailəsini saxlamalıdır. Uşa-



ğın, həyat yoldaşının ehtiyaclarını təmin etməlidir".

**Şəhər sakini Vəli Abbasov:** "Qadının hamiləlik dövrü olduqca çətin ola bilər. Kişi qadına dəstək üçün onun yanında olmalıdır. Uşaq dünyaya gəldikdən sonra atanın da, ananın da sevgisinə ehtiyac duyur.



Ona görə də, məncə, atalıq məzuniyyəti bizim ölkədə də tətbiq edilməlidir".

**Şəhər sakini Səkinə Alıyeva:** " Ümumiyyətlə, övlada baxmaq hər bir valideynin borcudur. Bu, o demək deyil ki, uşaq dünyaya gəldikdən sonra ata gedib işləsin. Gərək ata da övladına diqqət göstərsin. Uşaqlıqdan onunla maraqlansın. Ona görə də atalara da məzuniyyət verilməlidir. Bəzi



ölkələrdə bu qaydalar var.

**Şəhər sakini Rəhim Musayev:** "Körpə uşağın ehtiyacları həddindən artıq çox olur. Atalar fikirləşirlər



ki, həm ev, həm yemək, həm də uşaq xərclərini qarşılamalıdırlar. Ona görə də işləyirlər, istirahətdən boyun qaçırırlar. Amma başqa ölkələrdə atalar da məzuniyyətə çıxırlar. Həm də iş yerlərindən məcburi olaraq məzuniyyətə göndərirlər. Düşünürəm ki, bizdə də olsa, yaxşı olar".

***Abutel İlhamqızı***



# "Ermənistanın təxribatçı addımları davam edəcək"

"Hələ uzun müddət ermənilərin, Ermənistanın təxribatları davam edəcək, çünki sülh danışıqlarından söhbət getsə də real nəticə hələ də ortada yoxdur. Bölgədə sülhün olmaması həm Ermənistana, həm də Ermənistanı dəstəkləyən qüvvələrə sərf edir ki, regionda varlıqlarını qoruyub saxlasınlar. Ona görə də hesab edirəm ki, Ermənistanın təxribatçı addımları davam edəcək. Bu istər Tovuz istiqamətində olsun, istər Kəlbəcər olsun, istərsə də digərləri, bu tip provokasiyaların davam etməsi gözləniləndir və bu real görsənir." Bu sözləri SİA-ya açıqlamasında "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi"nin rəhbəri, politoloq Samir Hümbətov deyib.

Politoloq hesab edir ki, bu fonda yəni, baş verən provokasiyalar fonunda düşünmək olar ki, deməli, ermənilər hər dediklərini eləmirlər və sülhlə bağlı dedikləri yetərsizdir. "Elə bir şərait yaratmaq lazımdır ki, Ermənistan sülh məsələsində geriyə addım ata bilməsin. Bunun üçün də bizə lazım olan birinci məsələ, regionla bağlı marağı olan dövlətlərin bu məsələdə daha ciddi şəkildə proseslərə müdaxiləsi məsələsidir. Yəni, Ermənistanı öz yoluna qaytarmaq məsələsini gündəmə gətirmək lazımdır. Hesab edirəm, burada Rusiya özünü əsas vasitəçi hesab edirsə, o zaman Rusiyanı bu prosesdə daha aktiv vəziyyətə gətirmək və tələb etmək lazımdır ki, Ermənistanın bu cür təxribatçı addımlarının qarşısının alınmasına kömək etsin. Bu birinci şərtdir. Yəni, əsas vasitəçinin onlara təzyiq etməsi nəzərdə tutulur.

Eyni zamanda burada əsas marağı olan dövlət Türkiyədir. Türkiyə də düzdür son günlər Ermənistanla danışıqlar aparır, hansısa bir məsələlərin uzlaşdırılması ilə bağlı, amma təkcə bu deyil, həm də Rusiya-Türkiyə münasibətlərinin fonunda Ermənistana qarşı bir təzyiq elementi yaradıb ondan Ermənistanın normal münasibətlərə, danışıqlar masasına qaytarmaq lazımdır.

Təbii ki, Ermənistanın içərisində bəzi qüvvələr vardır ki, onlar ultra millətçilik edənlərdir, onların geri mütləq oturdulmalıdır. İndi təbii, hələ Paşinyan tam olaraq hakimiyyətini möhkəmləndirə bilmədiyi üçün baş verən proseslər də bəzən erməni baş nazirin iradəsindən kənarda baş verir. Hesab edirəm ki, Ermənistanda hakimiyyətin tam möhkəmlənməməsi, ölkədə ultra millətçilərin daha çox olması, eyni zamanda xarici qüvvələrin təsiri, bax bu üç faktor Ermənistanın Azərbaycana qarşı daimi aqressiv mövqedə durmasına şərait yaradır. Eyni zamanda üçtərəfli atəşkəs bəyannaməsinin Ermənistanın mənafeyini çox da əzmədiyi üçün bax bu günlərdə Ermənistan belə addımlar atır. Hesab edirəm ki, Ermənistanı daha da dalana dirəsək, Azərbaycanla sülh danışıqlarına oturar və az da olsa verdiyi sözə əməl edər", deyə Samir Hümbətov bildirib.

***İnam Hacıyev***

# Fransa portalı Azərbaycanın Afrika ölkələrinə dəstəyindən yazıb

**Fransanın "Mondeafrique" portalında Azərbaycan səfiri Rəhman Mustafayevin "Azərbaycan 300 min afrikalının göz əməliyyatını maliyyələşdirir" adlı müsahibəsi dərc olunub. AZƏRTAC xəbər verir ki, müsahibədə R.Mustafayev ölkəmizin Afrikada koronavirusa qarşı mübarizədə və görmə qabiliyyətinin bərpası istiqamətində verdiyi töhfələrdən söz açıb.**

Səfir bildirib ki, beynəlxalq birliyin üzvü kimi məsuliyyətini dərk edən Azərbaycan bir çox ölkədə xüsusilə səhiyyə sahəsində mövcud problemlərin aradan qaldırılmasına qlobal miqyasda dəstək verir. Azərbaycan dünyanı caynağına almış koronavirusla mübarizədə göstərilən beynəlxalq səyləri dəstəkləyib.

"Azərbaycan ona ünvanlanan müraciətlərə cavab olaraq dünyanın 80-dən çox ölkəsinə, eləcə də Ümumdünya Səhiyyə Təşkilatına (ÜST), ICESCO-ya, Birləşmiş Millətlər Təşkilatının Yaxın Şərqdəki Fələstinli Qaçqınlara Kömək və İşlər Agentliyinə (UNRWA) və UNESCO-ya yardım edib.


MONDAFRIQUE
DÉCRYPTAGES · INTERNATIONAL · POLITIQUE · CULTURE · ECONOMIE · SOCIÉTÉ · VIDEOS · LIBRE OPINION
Télécharger nos applis
Google Play · App Store
L'Azerbaïdjan finance les soins contre la cécité de 300000 Africains
Tweets

COVID-19 pandemiyasına qarşı mübarizəyə beynəlxalq dəstək proqramı çərçivəsində Azərbaycan Beynəlxalq Frankofoniya Təşkilatına üzv dövlətlərə 600 min doza vaksin göndərib", - deyə diplomat qeyd edib.

Oxucuların diqqətinə çatdırılıb ki, Qoşulmama Hərəkatının prezidenti qismində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2021-ci il noyabrında Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlər "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilib.

Müsahibədə Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) Afrika ölkələrində həyata keçirdiyi layihələrdən danışılıb. 2010-2017-ci illərdə Benin, Burkina-Faso, Çad, Mali, Niger, Kamerun, Kot-d'İvuar, Qvineya, Cibuti və Mozambik kimi bir çox Afrika ölkəsində Azərbaycanın maliyyə dəstəyi ilə 300 min insanın göz əməliyyatı aparılıb. Bildirilib ki, Azərbaycan Afrika ölkələrinə dəstək layihələrini davam etdirəcək.

# Xocalı soyqırımı - XX əsrin silinməz ləkəsi

## Dövlət başçısının Xocalı soyqırımının otuzuncu ildönümü haqqında Sərəncamına əsasən, tədbirlər planı hazırlanacaq

Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb. Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımından artıq 30 il ötür. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Ötən əsrin ən böyük faciələrindən biri kimi tariximizdə iz salan Xocalı soyqırımı XX yüzillikdə insanlığa qarşı törədilən ən amansız faciələrdən sayılır. Xocalı soyqırımı - XX əsrin silinməz ləkəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı soyqırımının otuzuncu ildönümü haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının otuzuncu ildönümü ilə əlaqədar tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin edəcək.

Xocalı soyqırımı tarixdən bizə məlum olan Babiyar, Xatın, Liditse, Srebrinitsa soyqırımı faciələri ilə eyni səviyyədə durur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu. Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Soyqırımının törədilməsinə görə Ermənistanın o zamankı



siyasi-hərbi rəhbərliyi birbaşa məsuliyyət daşıyır.




### XOCALI ŞƏHƏRİ BİR GECƏDƏ YER ÜZÜNDƏN SİLİNDİ

1992-ci ilin 26 fevral qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Dörd tərəfdən erməni terrorçu dəstələri tərəfindən əhatə olunan şəhər artilleriya və ağır hərbi texnikadan güclü və fasiləsiz atəşə tutuldu. Az bir vaxt ərzində şəhərdə böyük miqyaslı yanğınlar baş verdi və şəhər tamamilə alova büründü. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən işğal edildi. Xocalı bir gecənin içərisində yerlə yeksan olundu. Beləliklə, soyuq və qarlı fevral gecəsində minlərlə dinc sakin girov götürüldü. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində, kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi.

Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də, ABŞ-ın 22 ştatının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul ediblər. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1951-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib.

Xocalı şəhidləri həmin günün dəhşətini heç vaxt unutmayacaqlar. Qanlı qırğından sağ qalan əhali dağlara, meşələrə qaçmışlar. Dinc əhalini təqib edən silahlı ermənilər onları güllələyir, ələ keçənlərə amansız işgəncələrlə divan tuturdular. Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirirmişlər. İnsanlara olmazın işgəncələr vermiş, uşaqları valideynlərinin gözü önündə güllələmişlər. Aramsız güllə yağışından qurtulub ayağı yalın, başı açıq halda meşələrə, dağlara üz tutanların çoxusu yolda dondu, qar uçqunlarına düşdü. Bəşəriyyətin ən qədim yaşayış məskənlərindən olan Xocalı bir gecənin içərisində yerlə yeksan edildi.

Soydaşlarımızın xüsusi amansızlıqla qətlə yetirildiyi o qış gecəsinin dəhşətli anları, hər bir azərbaycanlının qan yaddaşına elə çökmüşdür ki, bu hadisələri kiminsə unutmağına inanmaq qeyri-mümkündür. Təbii ki, bu tarixi gündə törətdilən vəhşiliklər insanlarda erməni terrorizminə, onların işğalçılıq siyasətinə, insanlığa sığmayan əqidə və məsləkinə qarşı dərin nifrət hissi oyadır. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda baş verən ictimai-siyasi proseslərə həm hüquqi, həm də siyasi qiymət verildi. Bu gün Azərbaycan diplomatiyası soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində intensiv işlər aparılır. Bildiyimiz kimi, Ulu Öndərin təşəbbüsü ilə Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul edib. Ümummilli Lider Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il 25 fevral tarixli Sərəncamı ilə hər il fevral ayının 26-da saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir.

### MÜLKİ ƏHALİYƏ QARŞI QANLI CİNAYƏTLƏR ERMƏNİ VANDALİZMİNİN TƏZAHÜRÜDÜR

Ermənistanın daim mülki əhalini hədəf seçən təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı. Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zamanla metodlar dəyişsə də, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir. 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi.

Ümummilli Lidermiz Heydər Əliyevin uzaqgörən siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu diplomatiyası sayəsində dünyanın bir sıra ölkələrində Xocalı soyqırımından bəhs edən tədbirlər keçirilir, abidələr ucaldılır. Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət" beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir.

Bu gün Azərbaycan dövləti və hökuməti, digər qeyri-hökumət təşkilatları, diaspor qurumları Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə daha geniş coğrafiyada çatdırılması, onun soyqırımı aktı kimi tanıdılması istiqamətində mühüm addımlar atır. İnformasiya müharibəsinin geniş yayıldığı müasir dövrdə Xocalı soyqırımı haqqında bütün faktlar dünya dövlətlərinə çatdırılır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Əndrabadi “İNTELLİGENTLƏR”

## FELYETON

***Məmləkətimizdə hərdən adamın gözü önündən elə bir əcaib görünüşlü adam balası keçir ki, ürkmədən, ”bismillah” demədən ötüşmək olmur, halbuki mən ”vəhşiyi-gürran görürəm qorxmuram”. Məxluqata baxanda özün-özünə sual edirsən ki, aya, bu nə haldır, bu qafil özünü hardan gəlmiş zənn edir əcəba? Baxırsan ki, şalvarı cırıq, üzü də tük içində itən bu ”abrazonnu” adamın saçları da çiyinlərinə qədər uzanır. Dərvişdir, yoxsa nədir bu, deyə qərq olursan fikri-xəyala bu dari-cəhanda.***



*İnam Hacıyev*

Məxluqata ”canın bəcəhənnəm” demək də olmur, hansı cinsə mənsub olmasını təyin etmək də müşkülə çevrilir. Çün üzü-gözü tük içində itib-batan, amma dizləri çöldə qalan bu Allah bəndəsinin qulaqlarında sırğa görəndə lap çaş-baş qalırsan və düşüncə içində qərq olursan. Müsəlman olaraq zənn etdiyin bu adəm övladının üzünün tükünə baxırsan, bir də dizlərinin çöldə olmasına və düşünürsən ki, bu hansı məmləkətin adamıdır? Ey vah, ”deyəsən, bəşər deyil bu”, deyib tez yanından ötüşməyə çalışırsan. Amma əşhədü-billah adamı dərhal fikir götürür ki, bax, ”biz buna qail olan insanlarıq, ay bərəkallah, nə gözəl canlarıq”.

Bunların özlərini nə zənn etdikləri barədə mat-məətəl düşünürsən. Ağlımı əcaib-qəraib fikirlər də məşğul edir, amma sümvallah ”tarixi nadiri” bilən də çaş-baş qalar və elmi-gümanına belə gəlməz ki, bu, nə zaddı. Bəlkə də bunlardan hali-məqamı soruşularsa, deyərlər ki, ”intelligentik gəzərik naz ilə, ömür edərik nəşeyi dəmsaz ilə”. Qəflətən belə əhli-halın, ”əndrabadi” adamların gəldiyini görəndə, ”Xandostu, amandı, qoyma gəldi, didarı yamandı, qoyma gəldi”, deyib mürəxxəs olmağı gəlir bəndeyi fəqirinizin. Axı əsla, ”bir şəklə uyan təhər deyil bu” və uzaqlaşırsan ki, aya, ”ərdodu, qabandı, qoyma gəldi”.

”Ay keçən əyyam, olasan indilər!..”, deyə ah çəkməyin zərə-ziyanı olmasa da faydasını da görmədik, amma naləvü-əfğan etməmək mümkün deyil. Fəqət onu da ərz edim ki, bir qədər əvvəl, ”ölkədə bunca yox idi eybcu” və dizləri çöldə olan, qulaqları sırqalı ”igidlər” hardan peyda olduqları da müəmma olaraq qalmaqdadır. Axı, ”biz qoca Qafqazlı igid ərlərik” və bizə yaddır bu ədalar. Deyirəm, vallah, ”qurd isə, şəğal isə biyabanda olurdu, şəhr içrə bu heyvanlarına şükr, xudaya!”.

Övladi-vətən ”bizə nə?”, deyib yan keçə bilər, amma mənim də məramım odur ki, ”pisi pis, əyrini əyri, düzü həmvar yazım”. Bax, elə bu səbəbdəndir ki, ”qoyuram qənşərimə kağızımı, çernilimi” və niyyət edirəm, ”gördüyüm niku bədi eyləyim izhar, yazım”. Bir də axı, ”ey əcəb, mən ki, sədaqət yolunu azmayıram”. And olsun ki, ”həq sözü derkən utana bilmirəm!..”.

Məni məzur tutun əfəndilər, uzanmış saçlarını başlarının arxasında bağlayan, qaşlarına, gözlərinə ”tumar” çəkən müsəlman sayılan ”qardaşları” görəndə isə düşünürəm ki, ”bu nə şiveyi-ikrah!, bu nə zümreyi-bədxah!”. Sədəf dəhanından da bir sual səslənir ki, görəsən bu övladi-vətən niyə özlərini Qoca Qitənin, Avropanın adlı-sanlı universitetlərində təhsil alanlara deyil, kafe-şantanlarındakılara bənzətməyi məqbul hesab edirlər? Hərçənd ki, ”təhsili ülum ilə olur rütbeyi-irfan”. Ümumiyyətlə, müsəlman balaları özlərini niyə kürreyi-ərzdə kimə isə bənzətməlidirlər axı, bir halda ki, göründükləri kimi ola, yaxud da olduqları kimi görünə bilərlərsə? Maraqlıdır, bəs, ”bu urus başdılar, bilməyirəm hardan aşıb-daşdılar, ölkədə gündən-günə çoxlaşdılar.” Hara getmiş olursan bərələrində ərz etdiklərimi görürsən, çün görməməzlikdən gəlmək də olmur. Bu səbəbdəndir, üzümü tuturam əhli-hal olan kəslərə, məmləkətin aqili-danalarına ki, ”qoymayın, ay köhnələr, ay yaşdılar!, heyvərələr hər yerə dırmaşdılar!, yoxdu təəssübləri, çaşbaşdılar!”

Birdən, işdir-şayətdir haqqında bəyan etdiyim o ”intilligent” desə ki, ”kim sizi qəyyum edib, hökm edəsiz bizlərə”, o zaman mənim də, ”niyə bəs böylə bərəldirsən, o qarə, gözünü, yoxsa bu ayinədə əyri görürsən özünü?!”, deyə bir sualım olar əfəndim. Həm də axı bəyan edə bilərəm ki, ”özün insaf elə, əfkarına, ətvarına bax!, istəmirsən yazam, öz eybli kirdarına bax!”...

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Türkiyə sərt və qətiyyətli siyasətinin bəhrələrini görür

**Hazırda dünya ictimaiyyətinin Ukrayna böhranının yaxın zamanlarda müharibə ilə nəticələnə bilinib-bilinməyəcəyi ətrafında müxtəlif mülahizələr irəli sürdüyü bir vaxtda Türkiyənin Ermənistan və İsraillə münasibətlərini normallaşdırması istiqamətində siyasətinin artırıldığını müşahidə etməkdəyik. Artıq Ermənistanın XİN rəhbərinin Antaliyada keçiriləcək diplomatik forumdakı iştirakı gözlənilir. Bundan əvvəl isə Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan bəyan etmişdi ki, İsrailin prezidenti Qersoqun fevrada gözlənilən səfəri iki ölkə arasında yeni eranın başlanğıcı kimi tarixə düşə bilər.**

### BƏƏ, İsrail, Ermənistan Türkiyə ilə münasibətlərini normallaşdırmağa can atırlar?

Bu gün Türkiyə-İsrail münasibətlərinin normallaşdırılması prosesində Ankaranı öz xarici ideoloji siyasətindən imtinası kimi ittiham edənlər, əslində, belə bir yanaşmalarında müəyyən səhvlərə yol verirlər. Xüsusilə, İsrailin Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlərini bərpa etməsi fonunda belə bir iddia yersiz görünür. Lakin bu fonda belə bir sual yaranır: nəyə görə BƏƏ, İsrail, Ermənistan Türkiyə ilə münasibətlərini normallaşdırmağa can atırlar?

İlk növbədə qeyd etmək olar ki, öz siyasətlərində dəyişikliklər edən aktorlar həm də qlobal regional qaydaqanunların dəyişildiyinin fərqinə varırlar.

### Daha böyük risklər altına girərək zəifləməkdənsə, qarşılıqlı əməkdaşlıq funksiyası mexanizmini işə salıb, doğru qərarlar vermək, əslində, daha münasibdir

Bu xüsusda koronavirusun beynəlxalq aləmin siyasi sisitеminə etdiyi təsirlərini də vurğulamaq mümkündür. Artıq elə bir hal yaranıb ki, koronavirus amili bütövlükdə böyük güclərin siyasətlərinə öz təsirlərini göstərir, müxtəlif siyasi kontekstlərdə cərəyan edən hadisələr də çoxsaylı faktları ortaya çıxarır - ağıllı siyasətçilər isə çətin anda yalnız barış və sülh siyasəti ilə xilas olunacağını hər halda yaxşı anlayırlar. Daha böyük risklər altına girərək zəifləməkdənsə, qarşılıqlı əməkdaşlıq funksiyası mexanizmini işə salıb, doğru qərarlar vermək, əslində daha münasibdir.

Başqa tərəfdən, Türkiyə zamanında tətbiq etdiyi sərt və qətiyyətli gücü nəticəsində əldə etdiyi uğurlarından faydalanmaq istəyindədir. Bəs Türkiyə bütün bunlara necə nail oldu?

Fars körfəzi ölkələrindəki anti-Türkiyə fəaliyyətlərinə qarşı qətiyyətli müqavimət göstərdi və yerlərdə öz gücünü ortaya qoydu.

### Türkiyə strateji əhəmiyyətli Şuşa Bəyannaməsini imzalamaqla öz uğurlarını həm də regional gücə çevrilmiş Azərbaycanla bölüşdü

Şərqi Aralıq dənizindəki balansı dəyişdi və Liviya böhranına daxil olması ilə dəniz sərhədlərinin müəyyən edilməsini əks etdirən razılaşmanı imzaladı.

Və nəhayət, qonşusu və qardaş ölkə bəyan etdiyi Azərbaycana mənəvi dəstəyini göstərdi, bu gün Türkiyədə əsas ifadəyə çevrilmiş ”Tek Vatan Harek?tı” siyasətini tətbiq etdi.

Beləliklə, Türkiyə həm də Cənubi Qafqaz regionunda öz mövqelərini möhkəmləndirdi. Təkcə strateji əhəmiyyətli Şuşa Bəyannaməsini imzalamaqla öz uğurlarını həm də regional gücə çevrilmiş Azərbaycanla bölüşdü. Bu isə bir reallığı əks etdirir - Ankara zamanında tətbiq etdiyi qətiyyətli və sərt siyasətinin bəhrələrini görməyə başlayıb.

---

**“Xocalı soyqırımının otuz illiyi ilə bağlı cənab Prezident İlham Əliyevin imzaladığı sərəncam böyük əhəmiyyət daşıyır”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı bildirib.**



Onun sözlərinə görə, bu sərəncamda erməni terror siyasi təşkilatlarının, Ermənistanın azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlar və soyqırımları haqqında danışılır: ”Xocalı soyqırımına qədər törədilmiş faciələr barədə də sərəncamda yazılır. Xocalı soyqırımının otuz illiyi barədə sərəncam bəşəriyyətə və sivilizasiyaya qarşı Ermənistanın törətdiyi cinayətin dünyaya çatdırılmasında mühüm rol oynayacaq. Bu sərəncam elm adamlarının, qeyri-hökumət təşkilatlarının, səfirliklərin və medianın qarşısına yeni vəzifələr qoyur. Bizim hər birimiz bu sərəncamdan irəli gələn vəzifələrimizi, milli borcumuzu yerinə yetirməyə çalışmalıyıq. Xocalıda törədilən soyqırımın dünyaya tanıdılmasında Heydər Əliyev Fondu, Leyla xanım Əliyevanın rəhbərliyi altında ”Xocalıya ədalət” kampaniyası çox işlər görüb. Dünyanın bir neçə ölkəsində Xocalıda törədilən soyqırımı kimi tanınıb. Bəzi ölkələrin məktəb dərsliklərində Xocalıda törədilən soyqırımı haqqında məlumat verilir. Hesab edirəm ki, bu sərəncam erməni vəhşiliyinin iç üzünün bütün dünyada bir daha tanıdılmasında müstəsna rol oynayacaq”.

**“Sərəncam erməni vəhşiliyinin dünyada tanıdılmasında müstəsna rol oynayacaq”**

*Abutel İlhamqızı*





# “Cəmiyyətdə və parlamentdə Paşinyanın qərarlarına qarşı çıxan kifayət qədər qüvvələr var”



**“Məlumdur ki, yanvarın 23-də Ermənistan prezidenti A.Sarkisyan istefa ərizəsini yazdı və bu addımını ölkənin daxili və xarici problemlərinin həllində iştirak imkanının olmaması ilə əlaqələndirdi”. Bunu SİA-ya açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.**

Onun sözlərinə görə, təəccüblü idi ki, bu səlahiyyətlərlə 3 ildən artıq fəaliyyət göstərən dövlət başçısı nədənsə yalnız indi konstitusiyada yazılan müddəaların mahiyyətini anladı, hüquqlarının az olduğu qənaətinə gəldi və getmək barədə qərar verdi: ”Təbii ki, həm ölkə daxilində, həm də xaricdə bu izahat inandırıcı sayılmadı və istefanın əsl səbəbi barədə müxtəlif versiyalar ortaya atıldı. Onun xarici ölkə vətəndaşı olması faktını gizlətməsindən tutmuş Baş nazir N.Paşinyanın müəyyən xarici qüvvələrin vasitəsilə onu bu addımı atmağa məcbur etməsi kifayət qədər inandırıcı iddialar irəli sürüldü. Bir şey aydındır ki, Qərbin və Rusiyanın dəstəyini arxasına alan baş nazir bu addımın atılmasında və Sarkisyanın istefa verməsində hamıdan daha artıq maraqlıdır. Qarşıda onu son dərəcə mühüm qərarların verilməsi, ciddi addımların atılması gözləyir. Söhbət həm yeni konstitusiyanın qəbulundan, həm Türkiyə ilə münasibətlərin normallaşmasından, həm də Azərbaycanla mühüm razılaşmaların əldə olunmasından gedir. Təbii ki, bu addımları atmaq o qədər də asan olmayacaq”.

A.Səmədov onu da bildirdi ki, Ermənistan cəmiyyətində və parlamentdə bu addımların atılmasını qətiyyən qəbul etməyən qüvvələr var: ”Ancaq dövlət başçısının bu mühüm qərarlara müxalifət mövqeyində durması vəziyyəti kifayət qədər ağırlaşdıra və bəzi qərarların verilməsinə mane ola bilər. Yeni prezident kim olacaq? Parlamentdə qüvvələr nisbəti ilk iki turda həm müxalifətin, həm də hakimiyyətin namizədinin seçilməsini qeyri-mümkün edir. Bunu nəzərə alıb, iqtidar-müxalifət müzakirələri keçirib, heç bir partiyanın üzvü olmayan, nüfuzlu bir şəxsin namizədliyi barədə razılığa gəlmək olardı. Ancaq bu variant nə N.Paşinyanı, nə də onun xarici dəstəkçilərini qətiyyən qane edə bilməz. Bu səbəbdən, yeni prezidentin Baş nazirin komandasına daxil olan, onun tabeliyində işləmiş şəxslərdən birinin olacağı şəksizdir. Hələlik, iki şəxsin namizədliyi barədə KİV-də müəyyən iddialar səslənib. Əvvəlcə, Baş nazir aparatının rəhbəri A.Arutyunyanın hakim partiyanın namizədi olacağı barədə məlumat yayılıb və cəmiyyətin müəyyən hissəsi bunu kəskin narazılıqla qarşılayıb. Bundan sonra, iddia olunub ki, hakim ”Vətəndaş müqaviləsi” partiyasının rəhbərliyi dar çərçivədə bu məsələni yenidən müzakirə edib və bu dəfə Yüksək texnologiyalı sənaye naziri V.Xaçatryanın namizədliyi məqbul sayılıb. Bununla belə, Ermənistanda prezident seçkilərinə qədər hələ yeni namizədlərin ortaya çıxma ehtimalı kifayət qədər güclüdür və heç kimin güman etmədiyi bir namizədin verilməsi və seçilməsi tamamilə mümkündür. Bir şey aydındır ki, yeni prezident N.Paşinyanın iradəsinə qarşı çıxmayan və onun verdiyi qərarları tərəddüd etmədən dəstəkləyən bir şəxs olacaq”.

*Gülyana*

# Sabiq kargüzarın “müti qul”la bağlı ittihamları...

“...Bu gün bizim başımıza gələn fəlakət daha çox özümüzü aldatmağın nəticəsidir. Uzun illər Ermənistanla bağlı əksər məsələləri kənarda müzakirə edən sabiq dövlət başçıları, sonradan evə - İrəvana qayıdıb xalqa yalan vədlər verdiyini indi sübut etməyə elə də bir ehtiyac yoxdur. Doğrudur, siz bu gün ölkənin keçmiş prezidentləri ilə bu və ya digər şəkildə rəftar edə bilərsiniz, onların çoxsaylı baxışlarını qəbul edib, etməyə bilərsiniz,..lakin unutmaq lazım deyil ki, tarixi saxtalaşdırmaq erməni xalqı üçün həmişə ”qəbuledilməz”(?) olub. Bundan əlavə, buna yol vermək ”böyük erməni xalqı”nın gələcəyi üçün çox təhlükəlidir”... Nə deyəsən..?

Deməli, bir müddət bundan əvvəl ermənilərin ”təzəcə yaratdıqları” ”alternativ layihələr” adlı qrupu belə bir bəyanatla çıxış edib. Belə ki, yuxarıda yer alan fikirlər də həmin bəyanatın mətnindəndir. Bəyanat müəlliflərinin fikrincə, bu gün dar bir hakimiyyət qrupunun qərarı göz qabağındadır. Yəni onlar ölkənin gələcəyini məhv etməklə yanaşı, öz xilas yollarını da keçmişin saxtalaşdırılmasında görürlər. Özü də, sən demə, Nikol başda olmaqla onun ətrafındakılar bütün bunları aqressiv şəkildə və ”qırmızı xətlər” olmadan həyata keçirməyə çalışırlar.

Bəyanat müəlliflərinin fikrincə, ”...amma belə olmamalıdır”. Çünki, hələ o vaxt Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan Nikolun ideyalarına bənzər öz ideyalarını gizlədə bilmədiyinə görə ”istefaya getdi”(?). Doğrudur, indi qarasınca deyinilsə də, amma onun hakimiyyəti illərində, hərbi uğurların ən qaynar anlarında Ermənistan sərt xarici addımlardan xilas ola bildi(?). Amma Levonun ”qırmızı xətlər” tərəfə boylanması ona baha başa gəldi və onun sonunu gətirdi...

”Layihələr” qrupu müəlliflərinin fikrincə, yenə də sən demə, bunları ikinci erməni prezidenti Robert Köçəryan haqqında demək doğru olmaz, çünki o,.. əsil ”sülhsevər” prezident kimi, erməni tarixinə düşməlidir. Təbii ki, həmən ərəfədə onun Ki-Uest sülh sazişinə nail olması ”robertsevərlər” tərəfindən ”Ermənistanın böyük uğuru kimi” qəbul edilsə də, sonradan bu elə də işə yarımadı. Amma onun hakimiyyəti dövründə 100-ə yaxın erməni hərbçisinin ölümü istisna olmaqla, qalan erməni əsgərlərinin heç birinin burnu belə qanamadı. Buna baxmayaraq, o hakimiyyətdə olduğu 10 il ərzində guya qarşı, Azərbaycan tərəfinə böyük itkilər verdirdi.

Qeyd edək ki, ermənilərdə buna ”sülhün mühafizəsi, sülh istəyi” deyilir.

Yeri gəlmişkən bildirək ki, ”alternativ layihələr” qrup üzvlərinin fikrincə, ”qələbə məsələsində” üçüncü prezident Serj Sarkisyan da ”böyük pay sahibi” kimi erməni tarixinə düşməlidir. Bundan əlavə, Serjik Sarkisyan prezident olduğu dövrdə həm də ”ağlabatan kompromislərin və uzunmüddətli sülhün tərəfdarı” kimi də tanınıb. Necə deyərlər...”yiyən ölsün, ay Serjik”.

...Maraqlıdır, bəs onda ”uzun illər Ermənistanla bağlı əksər məsələləri kənarda müzakirə edən sabiq dövlət başçılarının sonradan İrəvana qayıdıb xalqa yalan vədlər verdiyini” deyən ”alternativ layihələr”çilərin bu fikirlərini necə başa düşək? Axı onlar xalqa verilən yalan vədlər deyərkən, təbii ki, Robertlə Serjiki nəzərdə tuturdular.

Yaxşı, siz deyin, dünənə qədər, elə dediyiniz kimi, sadə ermənilərin həyatına girib Erməistanı talayan Robert Koçaryan və ya onun həmkarı Serjik Sarkisyanı bu gün az qala ”qəhrəman” kimi təqdim etmkdə məqsədiniz nədir?

Hazırkı hakimiyyətə diqqət çəkib ”...bu hökumət ermənilər üçün nə etdi?”-deyə əsas gətirirsiniz. Hətta Nikol Paşinyanın bütün sahələrdə uğursuz olduğunu, onun yaxın qonşularla savadsız danışıqlar aparması sayəsində Rusiya ilə münasibətlərin pisləşməsini, Aİ və ABŞ ilə münasibətlərin ”ləğv edildiyini” dyirsiniz. ...Və hətta bir az da qabağa gedib, vaxtilə guya ”quşun belə səkə bilmədiyi” Erməistan sərhədlərində hazırda Azərbaycan əsgərlərinin ”ağalıq” etdiyindən şikayətlənirsiniz...

Yeri gəlmişkən qeyd edək ki, bu arada hələ də Serjikə ”sadiqliyi” ilə diqqət çəkən Armen Aşotyan ötən gün öz ”Facebook” səhifəsində təzliklə ”satqın bir siçovulun” Ermənistana prezident gətiriləcəyi barədə xəbər paylaşıb. Təbii ki, o bunu hakim partiyadan Ermənistan prezidentliyinə namizədliyi irəli sürülən Vaqan Xaçatryanı nəzərdə tutaraq bildirir. Aşotyana görə, yeni seçiləcək prezident guya baş nazır Nikol Paşinyanın bütün göstərişlərini ”müti qul kimi” yerinə yetirəcək.

...Əslində, Armen Aşotyanın belə haqsizlıq etməsinə heç bir əsas olmamalıdır. Çünki, o da vaxtilə Serjikə kargüzarlıq edən dövlərdə ”müti bir qul kimi” tanınıb.

*Ağasəf Babayev*





Təhmasib Novruzov

# Nömrəbazlar

**Vallah, sübuta-dəlilə ehtiyac olmadan reallıq ondan ibarətdir ki, biz çox yaxşı millətik. Son vaxtlar ”avropalaşma” bizi kökümüzdən bir az aralaya bilsə də, ”kök”ü möhkəm kişilər və nəsillər möhkəm təməlli rişələrini qoruyub saxlaya və əslində ”avropalaşma”nın eybəcərliyindən yaxa qurtarmağa çoxlarını da başa sala biliblər. Bir sözlə, bizi nə qədər özümüzdən ayırmaq istəsələr də, biz özümüzük və özümüz olaraq da qalacağıq.**

Amma, deyəsən, kökümüzdə olan bəzi-bəzi ənənələrimiz var ki, ondan yaxa qurtarmağa ehtiyac olduğunu da danmamalıyıq. Yox, son illər modda olan sünnətlərdən, əndazəsini aşan toy və vay mərasimlərindən, az qala toya bərabər keçirilən ad günü mərasimlərindən və ilaxır bu tipli ”adət”lərdən danışmaq fikrim yoxdur. Bunlardan o qədər danışıblar və danışırlar ki, bu ”adət”lərin anti-reklamı dönüb olub əməlli-başlı reklam. Yəni, bu da bizim tərk etməli bir xarakterimizdir ki, nəyi pisləyiriksə, elə bil onu təbliğ edirik və bəyləyiriq bu pislənənin ardınca uçmağa. Rəhmətlik Molla Nəsrəddinin (rəhmət dedim a , daha altı lətifəsini də istəməyin) bir lətifəsi vardı. Molla oğluna nə deyirmişsə, onun tərsini edirmiş. Bir gün uzunqulağın belində iki kisə unla çaydan keçən oğluna deyir ki, un kisələrini at çaya, o tərəfə keçməsin. Oğul bu dəfə Mollanın dediyini eləyir və unu atır çaya! Yəni, qorxuram ki, əks-təbliğat üçün də lazım olanı lazım olmayan kimi deyək, sonra başlasınlar deyilənə əməl eləməyə

Danışa-danışa mövzudan lap uzaqlaşdım deyəsən. Bu dəfə təzə yaranan bir ”adət”dən danışmaq istəyirəm. Yazıya da ona görə ”nömrəbazlar” adını verdim. Kimdi bu təptəzə ”adət”i cəmiyyətə dürtən? Maşın nömrəsi üstündə qırğındı. Mütləq avtomobilimizin dövlət nömrə nişanında sıfırlar bol olmalıdı. Olmursa, eyni rəqəmlərlə dolu nömrə olmalıdı. Bu da olmursa Nə bilim ey , vallah, elə bil bu nömrə onun bütün taleyini həll edəcək. Mobil telefonların operatorlarının sayının artması ”nömrəbazlar”a yeni ”şans” verdi. Babalarımızın heç telefon əlaqəsi olmayıb. Atalarımız da evdəki bir adi telefonla bütün dünya ilə əlaqə saxlayıb, dərdini də danışıb, dərd danışanın dərdini də dinləyib. Yadımdadı ki, bir ev telefonu bütün ailənin ehtiyaclarını qarşılayardı, çox zaman susub, dinməzcə durardı yerində. İndi hər kəsin evində iki-üç şəhər telefonu var. Üstəgəl ailənin neçə üzvü varsa hərəsinin bir mobil telefonu. Orta məktəbdə, ibtidai siniflərdə oxuyanlar bir yana, hətta bağçaya gedən uşağa da mobil telefon alırıq ki, birdən lazım olar(???). Bunda sözüm yoxdu. Varlığa nə darlıq? Varımızdı, alırıq (sonra da deyirik ki, millət pis dolanır ).

Məni illərdi düşündürən başqa məsələdi. Düşünüb, daşınıb, yaxın adamlarıma bu barədə suallar versəm də, ağıllı-başlı bir cavab verən olmur ki, olmur. Odur ki, sarıldım qələmə. Deyirəm, bəlkə məmləkətdə bu hikməti mənə başa salan bir ağıllı adam tapıldı. Əlbəttə, əgər başa salmaq mümkünatı varsa! Ölkədə hazırda üç mobil telefon operatoru fəaliyyət göstərir. Hələ feysbuuku, instoqramı, teleqramı, tvitteri qoyuram bir tərəfə. Heç vaatsapı da nəzərə almıram. Dediyim kimi, üç mobil şəbəkə var, hamısından da bir-birinə rahatça zəng vurmaq mümkündür. O zaman bütün mobil şəbəkələrdən nömrə almağa nə hacət? Oxucum, bilirəm, azərsell və digər şəbəkələr arasındakı qiymət fərqini əsas gətirib məni qınayacaq. Yaxşı, elədirsə, bir azersel, bir də digər şəbəkədən nömrə alsaq, problem həll olmazmı? Hələ onu demirəm ki, elə adamlar var, bir şəbəkədən iki, üç nömrə gəzdirir üstündə. Ay canım, bir adam eyni zamanda bir telefonla danışa bilər də Zəng edən görəndə ki, məşğuldu, gözləyib sonra yenidən zəng vuracaq. Belədə, üç, beş, bəzən hətta on-on iki nömrəni alıb, onu üstündə gəzdirən bunu nə məqsədlə edir? Bax, mənim anlamadığım da burasıdır. Bilən, anlayan varsa, rica edirəm, bunu mənə izah etsin, mən də bilim. Əlbəttə, dıgər izahı varsa!...

SON SƏHİFƏ
SƏS
1 fevral
2022-ci il



# Obameyanq "Barselona"da!

"Arsenal"ın hücumşusu Pyer-Emerik Obameyanq dünən Kataloniyaya gedib. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, qabonlu futbolçu tibbi müayinədən keçdikdən sonra "Barselona"nın heyətinə qoşulacaq. Onun mövsümün sonuna qədər icarəyə verildiyi bildirilir.

Qeyd edək ki, Obameyanq "Arsenal"ın baş məşqçisi Mikel Arteta ilə münaqişədən sonra heyətə düşmür.



# «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN




# İngilis aktyorun malikanəsi 3,3 milyon dollara təmir olunur

"Hörümçək adam" filminin ulduzu, britaniyalı aktyor Tom Hollandın Londondakı malikanəsi 3,3 milyon dollara təmir olunur. SİA xarici mətbuata istinadən xəbər verir ki, 2018-ci ildə aldığı evdə ABŞ-lı sevgilisi aktrisa Zendaya ilə birlikdə yaşamağı planlaşdıran Holland pul kisəsinin ağzını açıb. Qeyd edək ki, aktyorun 25 yaşı var.

*Ayşən Vəli*



# Emre Belözoğlu: "Mahiri İstanbulda gözləyirik"

"Dediyim kimi, biz Mahiri komandamızda görmək istəyirik. Düşünürəm ki, o, bizi gücləndirə bilər". Bu sözləri azerisport.com-a müsahibəsində Türkiyənin "Başakşehir" klubunun baş məşqçisi Emre Belözoğlu bildirib.

Onun sözlərinə görə, hazırda onlar "Legiya" ilə Mahir arasındakı məsələlərin həllini gözləyirlər: "Mahir bizim onu heyətimizə qatmaqla bağlı ciddi niyyətimizdən xəbərdardır. Ümid edirəm ki, tezliklə hər şey həll olunacaq. Biz Mahiri İstanbulda gözləyirik". Xatırladaq ki, "Legiya" (Polşa) ilə aralarındakı problemə görə Mahir bu qış klubunu dəyişmək istəyir. Qeyd edək ki, E.Belözoğlu dünən Türkiyənin "Anadolu" agentliyinə verdiyi açıqlamada deyib: "Bəli, Mahir Emreli maraqlandığımız futbolçudur. Bildiyimə görə, Polşada xoşagəlməz bir olayla qarşılaşıb. O vəziyyətdən çıxmağa çalışır. Onun transfer məsələsi ilə vitse-prezidentimiz Mustafa Eröğüt çalışır. Mənim məsələ ilə bağlı bilgim bu qədərdir".

# ŞOK:

## Las-Veqasda 6 avtomobil toqquşdu, 9 nəfər öldü

ABŞ-ın Nevada ştatının Las-Veqas şəhərində 6 avtomobilin toqquşması ilə baş verən yol qəzasında 9 nəfər ölüb. SİA xarici mətbuata istinadən xəbər verir ki, Şimali Las Veqas polis departamentindən Alexander Cuevas, qəzaya qırmızı işıqda sürətlə keçməyə çalışan bir avtomobilin səbəb olduğunu bildirilib.

Qəzaya səbəb olan avtomobilin sürücüsü, onun yanındakılar və bir nəfər də daxil olmaqla cəmi 9 nəfərin öldüyü bildirilir. Cuevas həyatını itirənlər arasında uşaqların olduğunu bildirib.

*Turqay*

# Diqqət: İdmana neçə yaşdan sonra başlamaq lazımdır?

Müasir dövrdə ən böyük problemlərdən biri hərəkətsiz həyat tərzidir. Texnologiya inkişaf etdikcə, televizor və kompüterlə saatlarla vaxt keçirmək, xüsusən də, uşaqların həm səhhətinə, həm də gələcək həyatına ciddi ziyan vurur. Hər şeydən əvvəl uzun müddət hərəkətsiz qalmaq onurğa sütununun düzgün inkişafını pozur, çəki artımına yol açır, görmə qabiliyyətini zəiflədir, oynaqlarda duzun yığılması kimi problemlər yaradır. Bu səbəbdən uşaqların hələ balaca yaşlarından passiv həyatdan aktiv fəaliyyətə doğru yönləndirmək çox vacibdir. Təbii ki, istənilən valideyn övladının sağlam və gümrah olmasını arzulayır. Ancaq bunun üçün mütləq lazımi addımlar atılmalıdır. Sağlamlığın təməli, ilk növbədə idmanla məşğul olmaqdır. Çünki idman uşaqların fiziki və mənəvi inkişafına kömək edən həyat tərzidir. İdmanla məşğul olan yeniyetmələr təkcə güclü və çevik olmur, bu, onlarda özlərinə inamı və cəsarəti də artırır. Eyni zamanda, psixoloji inkişaf da güclənir. Uşaq belədə mübarizə aparmağı öyrənir, onda qalib ruhu formalaşır. Bu keyfiyyətlər gələcək həyatda çox lazım olur. İdman çimində isə diqqətli olmalı məqamlar var.

Məsələ ilə bağlı həkim-pediatr SİA-ya açıqlamasında bunları deyib: "Elə idman növləri var ki, 2-3 yaşından uşaqları yönləndirmək olar. Ancaq idmana yönləndirərkən uşağın fizioloji yaşı da önəmlidir. Qeyd etmək lazımdır ki, bəzən iki eyni yaşda uşağın fiziki durumları fərqli olur. Təbii ki, idman növünə də diqqət etmək lazımdır. Hər idman növünə başlama yaşı fərqli olur. Buna görə də idman növü və fiziki yaşın əlaqəsi önəmlidir. Boks kimi ağır idman növlərinə 10 yaşından başlamaq məsləhət görülür".

*T. Musayev*


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600